## Qəzalı binalarla bağlı rəy hazırlanır

Komissiya hesabatını Nazirlər Kabinetinə tədqim edəcək



**Müxtəlif dövlət qrumlarından ibarət yaradılmış komissiya Azərbaycanda qəzalı binalarlıa bağlı iş aparır.**

Bunu Trend-ə Bakı şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib.

O bildirib ki, komissiya qəzalı binalarla bağlı qiymətləndirmə, inventarizasiya aparır. ”Komissiya qəzaları binalarla bağlı rəylərini hazırlayaraq Nazirlər Kabinetinə tədqim edəcək. Komissiyaya Bakı şəhər İcra Hakimiyyətinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Fövqəladə Hallar Nazirliyinin və diggəe müvafiq qurumların nümayəndələri daxildir”, - deyə o qeyd edib.

## Bu gömrük yığımı ləğv edildi



**Nazirlər Kabineti ”Gömrük yığımlarının məbləğləri”ndə dəyişiklik edib.**

İndiyə qədər qüvvədə olan qərara əsasən, malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında tam yerləşdirilməsini nəzərdə tutan bütün növ gömrük bəyannamələrinin hər vərəqi üçün elektron gömrük xidmətinin göstərilməsinə görə 30 manat məbləğində gömrük yığımı alınıb.

*Dəyişikliyə əsasən, bu gömrük yığımına dair maddə ləğv edilib.*


№ 98 (5859) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 iyun 2023-cü il (çərşənbə)




## Lənkəranda quyuya düşən 87 yaşlı qadın xilas edilib

**Lənkəranda 87 yaşlı qadının quyuya düşməsi ilə bağlı bəzi təfərrüatlar məlum olub.**

Arifə Cahangirovanın qızları Kamilə Kazımova və Əsabə Yusubova iddia edirlər ki, analarını quyuya qardaşı Rza Qurbanov və onun ailəsi atıb. Qadının gözləri görmür, quyunun üstü də bağlı olur. Quyu evdən aralıda yerləşir.

Rza Qurbanov bacılarının iddialarını əsassız sayır. APA-ya verdiyi açıqlamada R. Qurbanov bildirib ki, o və ailəsi anasına necə lazımdır qulluq edir. Anasının gözləri görür, amma eşitmə qabiliyyəti zəifdir. Hadisə baş verən zaman o və ailəsi işdə olub. Anası A. Cahangirovanın quyuya düşməsini də yaxınları tərəfindən eşidib. Hətta anasının quyudan çıxarılmasına cəhd edib. Bacarmadığından aidiyyəti orqanlara məlumat verib.

Qeyd edək ki, qadının qəsdən quyuya atılmağı ilə bağlı polisə hər hansı müraciət daxil olmayıb.

Hadisənin dəqiq səbəbi hüquq-mühafizə orqanları tərəfindən araşdırılır.

# Azərbaycanla Ermənistan sülhün astanasındadır

Ceyhun Bayramov: “Biz 3 istiqamət üzrə Ermənistandan siyasi iradə gözləyirik”




**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxış edib.**

XİN-dən ”Şərq”ə bildirilib ki, nazir Ceyhun Bayramov çıxışında ATƏT regionunda ümumi təhlükəsizlik mühitinin əhəmiyyətindən söz açaraq Helsinki Yekun Aktında təsbit edilmiş ATƏT iştirakçı dövlətlərinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmətdən başlayaraq təşkilatın prinsipləri və öhdəliklərinin sülh və təhlükəsizliyin təməli olaraq qalmasının, coğrafi üstünlüklər və ikili standartlar olmadan bərabər və qeyd-şərtsiz tətbiq olunmasının əhəmiyyətindən bəhs edib.

(səh.2)



## Türkiyədə Ailə və Gənclik bankı qurulacaq

Ərdoğan: “Dünyanın ən güclü on iqtisadi dövlətindən biri olmaq istəyirik”

**Türkiyədə Ailə və Gənclik bankı qurulacaq. TurkicWorld xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

Türkiyə prezidenti bildirib ki, ölkəsi dünyanın ən güclü on iqtisadi dövlətindən biri olmaq istəyir.

”Bundan sonra da Türkiyə üçün çalışmağa davam edəcəyik. Hədəfimiz mühafizəkar , yenilikçilikdir, həm inkişaf edirik həm də kökümüzə bağlıyıq” - deyə Ərdoğan qeyd edib.

*Qeyd edək ki, dünən Türkiyənin yeni hökumətinin ilk iclası keçirilib.*

## Balansın saxlanılması vacibdir

Samir Şərifov: “Dövlət borcunun çox olması siyasi müstəqilliyimizi də sual altına qoya bilər”



**“Azərbaycan Hava Yollarının (AZAL) hesabında subsidiyanın qalıq kimi qalmasını qəbahət kimi görmürük”.**

Bunu Milli Məclisin dünənki iclasında ”2022-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı maliyyə naziri Samir Şərifov deyib. Nazir bildirib ki, Azərbaycan Hava Yollarına (AZAL) verilən subsidiyanın onun hesabında saxlanılması məsələsi qaldırılmışdı:

”Subsidiya bir neçə halda verilir. Subsidiyalar ayrılan şirkətlər tərəfindən mütləq şəkildə istifadə olunmalıdır. AZAL-ın hesabında bu subsidiyanın qalıq kimi qalmasını qəbahət kimi görmürük.

(səh.3)

# Putin vətəndaş müharibəsi ilə üzləşib

Qələbə əvəzinə Rusiya 200 mindən çox hərbçisini və böyük sayda hərbi texnikasını itirib



**“Bir çox yerlərdə güclü və dərin istehkamlara baxmayaraq, ruslar bütün cəbhə xətti boyunca Ukrayna qüvvələrinin əks-hücumunun qarşısını ala bilməyəcək. Ukraynalılar bu boşluqları tapıb uğur qazanmaq üçün onlardan istifadə etməlidir”.**

Bunu ABŞ-nin müdafiə naziri Lloyd Ostin deyib. Nazirin sözlərinə görə, Rusiyanın işğal etdiyi ərazilər boyunca müdafiə və bir çox hallarda dərindən müdafiə qurduğu hamıya məlumdur: ”Biz bir neçə istehkam xətti, xəndəklər, ”əjdaha dişləri”, hazırlanmış mövqelər və s. görürük.

(səh.3)



## Şərur sakini ən yüksək nəticə göstərdi

O, hər iki mərhələnin cəminə görə 690.7 bal toplayıb

**II və III ixtisas qrupları üzrə mayın 20-21-də keçirilmiş qəbul imtahanlarında ən yüksək nəticə göstərənlər açıqlanıb.**

Dövlət İmtahan Mərkəzindən verilən məlumata görə, bu imtahanda II ixtisas qrupu üzrə isə ən yüksək nəticəni 394.0 bal toplayan Şərur rayon Kürçülü kənd tam orta məktəbinin məzunu göstərib. O, imtahanın birinci mərhələsində 296.7 bal toplayıb. Hər iki mərhələnin cəminə görə II ixtisas qrupu üzrə ən yüksək nəticə (690.7 bal) də ona məxsusdur.

(səh.2)

## Vəfat edən olmayıb

3 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 yeni yoluxma faktı qeydə alınıb, 1 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 831 865 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 821 550 nəfər müalicə olunaraq sağalıb, 10 277 nəfər vəfat edib, aktiv xəstə sayı 38 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 185, hazırkı dövrədək isə 7 627 857 test aparılıb.*

## Unun qiyməti bahalaşa bilər

Dünya bazarında da vəziyyət ürəkaçan deyil



**“Dünya bazarında taxılın qiymətində müəyyən qədər artım müşahidə olunur”.**

Bunu ”Şərq”ə iqtisadçı Natiq Cəfərli unun qiymətinin artacağı ilə bağlı iddialara münasibət bildirərkən deyib. Onun sözlərinə görə, bu il Ukraynanın bazara taxıl çıxarmağında ciddi problemlərin olacağı gözlənilir: ”Ukrayna və Rusiya arasında taxıl anlaşması iki aylıq uzadıldı. Sözügedən müqavilənin Türkiyənin təşəbbüsü ilə yenidən uzadılması barədə hələ ki ilkin razılaşmalar yoxdur. Bu da dünya bazarında taxılın bahalaşacağı ilə bağlı fikirləri formalaşdırır.

(səh.4)



## Tofiq Zülfüqarov İrəvanın əsas istəyini açıqladı

“Ermənistan imzalanacaq sənəddə Azərbaycanın Qarabağda yaşayan ermənilərə aid öhdəliklərinin təsdiq edilməsini istəyir”

(səh.2)

## Maaş və pensiyalar yenidən artırılsın

Ərzaq qiymətlərində 20 faiz, dərman qiymətlərində 40 faiz inflyasiya olub

(səh.4)






# Kənd Təsərrüfatı Nazirliyinin yeni inzibati binası istifadəyə verildi

## Prezident İlham Əliyev açılış mərasimində iştirak edib

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binası istifadəyə verilib.**

**"Şərq" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

Son illərdə paytaxtda modern üslubda tikilən binalar sırasına daha biri əlavə olunub. Xətai rayonu, Nəcəfqulu Rəfiyev və Süleyman Vəzirov küçələrinin kəsişməsində ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bina barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, yeni binanın tikintisinə 2017-ci ildə başlanılıb və bu ilin iyun ayında başa çatdırılıb. Müasir memarlıq üslubuna uyğun inşa olunan bina nazirliyin aparatı ilə yanaşı, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, Aqrar İnnovasiya Mərkəzi və Aqrar İnkişaf Könüllüləri olmaqla 500-ə yaxın əməkdaşın fəaliyyəti üçün nəzərdə tutulub.

Binanın hündürlüyü olan 12 metr foyesində "Əbədiyyət" kompozisiyası nümayiş olunur. Kompozisiyanın müəllifi rəssam-heykəltəraş Rəşad Mehdiyevdir.

Üç hissədən ibarət olan kompozisiyanın rəmzi motivi Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyini əks etdirir.

Kompozisiyada Azərbaycan xalqının həyat fəlsəfəsinə uyğun əbədi dəyərləri, qalib insan ruhunu, zəhməti və bərəkəti, dayanıqlılığı nümayiş etdirən ideyalar əksini tapıb. Mərkəzdə Heydər Əliyevin büstü olan kompozisiyada ağacın budaqları səmaya və sonsuzluğa doğru ucalır. Kufi üslubunda xüsusi bir nizamla yaradılan şəbəkə səmanı ifadə edir. Səmada Ümummilli Liderin anadan olmasının 100 illiyini əks etdirən 100 ulduz parlayır.

Ağacla bərabər səmaya ucalan sütunlar ərzaq təhlükəsizliyinin dayanıqlılığını təcəssüm edir. Ağacın budaqları kompozisiyanın sağına - qələbə və sülhün bərqərar olduğu bərəkətli torpaqlar əks edilmiş rəsmə doğru uzanır. Yağlı boya ilə işlənən əsərdə əzəmətli dağın və geniş buğda zəmisinin üzərindən səmaya doğru pərvazlanan göyərçinlər 44 günlük Vətən müharibəsində qazanılan Qələbəni müjdələyir.

"Əbədiyyət" kompozisiyasının sol hissəsində torpaqlarımızda yetişən nemətləri təqdim edən insan əlləri heykəli əks etdirilib. Bərəkət və zəhməti təcəssüm etdirən əllər ağacın budaqlarından qidalanır.

Qeyd edilib ki, burada Ümummilli Liderə həsr olunan xüsusi "Heydər Əliyev-100" guşəsi də yaradılıb. Bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Ulu Öndərin Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı gördüyü işlər guşədə geniş əks olunub.

Nazirliyin yeni binası ilə tanışlıq zamanı qeyd olunub ki, 215 otaqdan ibarət işçi mərtəbələrdə əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada nazirliyin Elektron İdarəetmə Mərkəzi üçün xüsusi otaq, hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunan konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxana var. Diqqətə çatdırılıb ki, ərazidə 170 avtomobil yerlik dayanacaq yaradılıb.

***

Qeyd edək ki, ölkəmizdə kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, aqrar sığorta mexanizminin tətbiqi aqrar sahənin dinamik inkişafına müsbət təsirini göstərir. Bunun nəticəsidir ki, 2022-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 3,4 faiz artıb. Artım dinamikası 2023-cü ilin ilk dörd ayında da qorunub saxlanılıb. Həmin müddətdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artım qeydə alınıb.

Subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə verilməsi, aqrar sahədə rəqəmsallaşma səviyyəsinin ildən-ilə artmasını təmin edir. Aqrar sahəyə dair müasir innovasiyalar və texnologiyalara, texnoloji yeniliklərə, kənd təsərrüfatı texnikasına, damazlıq heyvanlara əlçatanlığın təmin edilməsi, gübrə bazarının liberallaşdırılması sağlam rəqabət mühitinin formalaşmasına səbəb olub. Məhsul istehsalının artması kənd təsərrüfatı məhsullarının ixrac potensialını yüksəldib. Belə ki, ötən il ölkəmizdən xarici bazarlara 886,1 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulu ixrac olunub. İxracın həcmi əvvəlki illə müqayisədə 1 faiz artıb.

# Azərbaycanla Ermənistan sülhün astanasındadır

## Ceyhun Bayramov: "Biz 3 istiqamət üzrə Ermənistandan siyasi iradə gözləyirik"




**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxış edib.**

**XİN-dən "Şərq"ə bildirilib ki, nazir Ceyhun Bayramov çıxışında ATƏT regionunda ümumi təhlükəsizlik mühitinin əhəmiyyətindən söz açaraq Helsinki Yekun Aktında təsbit edilmiş ATƏT iştirakçı dövlətlərinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmətdən başlayaraq təşkilatın prinsipləri və öhdəliklərinin sülh və təhlükəsizliyin təməli olaraq qalmasının, coğrafi üstünlüklər və ikili standartlar olmadan bərabər və qeyd-şərtsiz tətbiq olunmasının əhəmiyyətindən bəhs edib.**

Ölkəmizin ATƏT çərçivəsində davamlı fəallığının regionda sülh, təhlükəsizlik və sabitliyə töhfə vermək öhdəliyimizin sübutu olduğunu bildirən nazir Azərbaycanın ATƏT də daxil olmaqla müxtəlif platformalarda səmərəli çoxtərəfli əməkdaşlığın tərəfdarı olduğunu, ehtiyacları və prioritetləri əsasında ATƏT və onun təsisatları çərçivəsində əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb.

Çıxış zamanı, Azərbaycan və Ermənistan arasında davam edən normallaşma prosesindən söz açılıb, ikitərəfli danışıqların hazırkı mərhələsinə dair ölkəmizin mövqeyi səsləndirilib.

Ermənistanın təcavüzü nəticəsində, təxminən otuz il davam etmiş silahlı münaqişənin başa çatması və iki ölkənin öz müstəqilliklərini bərpa etdikdən sonra ilk dəfə olaraq bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət öhdəliyi ilə sülhün astanasında olduğu bildirilib.

Münaqişə sona çatdıqdan sonra Azərbaycan xalqının uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan tərəfindən Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal işin aparıldığı qeyd olunub.

Sülhün qurulması, sabitliyin möhkəmləndirilməsi, dinc birgə yaşayışın təmin edilməsi, barışıq gündəliyinin irəli sürülməsi, iqtisadi inkişafa və əməkdaşlığa sərmayə qoyuluşu üçün imkan və real perspektivlərin olmasından bəhs olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan-Ermənistan normallaşma prosesi çərçivəsində ikitərəfli sülh sazişi mətni üzərində danışıqlar aparıldığını bildirib. Son bir neçə həftə ərzində Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişinyovda keçirilən danışıqların tərəflərin mövqeyini daha yaxşı anlamağa imkan yaratdığını diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın ikitərəfli müzakirələrin gündəliyini formalaşdıran üç konkret istiqamət üzrə fikir ayrılıqlarını aradan qaldırmaq üçün Ermənistan tərəfdən qarşılıqlı siyasi iradə gözlədiyini bildirib. Bu kontekstdə, Ermənistanın Azərbaycanın suveren ərazilərində qeyri-qanuni hərbi mövcudluğunu davam etdirməsi, daxili işlərimizə ardıcıl müdaxilə, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin erməni əsilli yerli sakinləri arasında dialoqa mane olması və beynəlxalq miqyasda, o cümlədən, ATƏT çərçivəsində qarayaxma kampaniyası aparılmasının Azərbaycan Ermənistan arasında dövlətlərarası normallaşma üzrə danışıqlara əsas maneə olduğu diqqətə çatdırılıb.

Ərazilərimizin otuz ildir davam edən hərbi işğalının ağır nəticələrini aradan qaldırmaq üçün Azərbaycanın genişmiqyaslı reabilitasiya, yenidənqurma və reinteqrasiya səylərindən bəhs olunub.

Ölkəmizin Azərbaycanın Qarabağ bölgəsinin etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi Azərbaycanın siyasi, hüquqi, iqtisadi və sosial çərçivəsinə yenidən inteqrasiyasında qərarlı olduğu vurğulanıb. Bu xüsusda, dövlətlərin daxili işlərinə qarışmamaq, milli azlıqlara mənsub şəxslərin inteqrasiyasına xələl gətirməmək və ya qonşu dövlətlərin ərazisində separatizmi qızışdırmamaq üzrə öz öhdəliklərinə ciddi şəkildə riayət etməyin zəruriliyi qeyd olunub.

Azərbaycan hökumətinin gördüyü yorulmaz səylər nəticəsində məcburi köçkün ailələrinin birinci qrupunun artıq Azərbaycanın Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndlərinə və Azərbaycanın Laçın şəhərinə qayıtdığı barədə məlumat verilib. Nazir Ceyhun Bayramov bununla belə, Azərbaycan ərazilərinin kütləvi şəkildə mina və digər partlayıcı maddələrlə çirkləndirməsinin əsas maneə və ciddi humanitar təhlükə olmaqda davam etdiyini diqqətə çatdırıb.

Çıxışında ağır hərbi cinayətlər və insanlığa qarşı cinayətlərlə bağlı ədalətin təmin edilməsinin əhəmiyyətindən söz açan nazir Ceyhun Bayramov keçmiş münaqişə nəticəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi barədə məlumatların açıqlanması ilə bağlı Ermənistanın öhdəliklərinə əməl etməklə bağlı davamlı çağırışlarımıza məhəl qoymadığı bildirilib.

Sonda nazir Ceyhun Bayramov Azərbaycanın beynəlxalq öhdəliklərinə sadiq qaldığını, konstruktiv dialoqa açıq olmaqla yanaşı, beynəlxalq hüququn pozulmasına göz yummayacağını və beynəlxalq səviyyədə müvafiq addımlar atmağa davam edəcəyini bildirib.

# Regional nəqliyyat dəhlizi açılır

## Bu marşrut Aİ ölkələri üçün də olduqca önəmlidir

**Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan və Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar Arazdəyən-Culfa-Mehri-Horadiz dəmir yolunun bərpası və bu hissədə hərəkətin təşkilini müzakirə ediblər. Xatırladaq ki, 3 iyunda Azərbaycan, Rusiya və Ermənistan baş nazir müavinlərinin iştirakı ilə görüş keçirilib.**

Görüş zamanı hər 3 ölkənin baş nazir müavinlərinin həmsədrliyi ilə üçtərəfli işçi qrupunun növbəti iclası konstruktiv şəraitdə keçib. Arazdəyən-Culfa-Mehri-Horadiz marşrutu üzrə dəmir yolu əlaqəsinin bərpası və təşkili istiqamətində konkret addımların atılması ilə bağlı ümumi anlaşma əldə olunub.

**Azərbaycan Demokratik Partiyasının sədr müavini Həsrət Rüstəmov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan və Ermənistandan keçən kommunikasiyaların açılması və bu istiqamət üzrə nəqliyyat dəhlizinin işləməsi ilk növbədə Ermənistana lazımdır. Analitikin sözlərinə görə, bu, Ermənistan üçün bir dövlət kimi mövcudluq imkanı deməkdir:** "Azərbaycanın alternativ beynəlxalq nəqliyyat imkanları var, qonşu ölkədə isə bu yoxdur. Görünür, Ermənistan hakimiyyəti tədricən reallığın fərqinə varmağa başlayıb. Əlbəttə, regional nəqliyyat dəhlizi bütün bölgənin xeyrinədir və bu baxımdan mümkün olan ən qısa vaxtda tikintisinə başlamaq lazımdır. Moskva görüşünə gəldikdə isə bu, aydın məsələdir ki, Rusiya Cənub-Qərb kommunikasiyalarında o qədər də maraqlı deyil. Sadəcə, prosesi öz nəzarətində saxlamaq və mümkün qədər gecikdirmək taktikasını həyata keçirir. Avropa İttifaqının nümayəndəsinin prosesdə iştirakı, şübhəsiz, mühüm əhəmiyyətə malikdir və bu həm də qarşı tərəfin proyektdə ciddi maraqlarının olmasını göstərir. Hazırda Rusiya ilə kommunikasiyaları bağlamağa məcbur olan Aİ ölkələri üçün bu marşrut olduqca önəmlidir. Həmçinin Avropanın nəqliyyat təhlükəsizliyi alternativ yolların olmasını tələb etdiyindən Aİ-nin İrəvanı bu məsələyə maneə olmamağa, əksinə, fəal iştirak etməyə həvəsləndirməsi də yaxşı anlaşılandır".



Ermənistan hakimiyyəti tədricən reallığın fərqinə varmağa başlayıb

**İsmayıl Qocayev**



# Tofiq Zülfüqarov İrəvanın əsas istəyini açıqladı

## "Ermənistan imzalanacaq sənəddə Azərbaycanın Qarabağda yaşayan ermənilərə aid öhdəliklərinin təsdiq edilməsini istəyir"

**ABŞ 12 iyunda Vaşinqtonda Ermənistan-Azərbaycan danışıqlarının növbəti raundunu səbirsizliklə gözləyir. Çünki tərəflər Cənubi Qafqaz regionunun sülhsevər gələcəyə doğru fəaliyyətini davam etdirirlər.**

Bu barədə ABŞ Dövlət Departamentinin Mətbuat xidməti rəhbərinin müavini Vedant Patel deyib.

"Mən əvvəl də demişəm ki, birbaşa dialoq problemlərin həlli, davamlı və layiqli sülhə nail olmaq üçün açardır. ABŞ Ermənistan və Azərbaycan arasında danışıqların müxtəlif platformalarda, o cümlədən liderlər müstəvisində getməsindən məmnundur" - deyə, o bildirib.

Bir çox məsələlərdə razılığın əldə edilməsi üçün problemlərin yaşandığını deyən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə bildirib ki, Ermənistan imzalanacaq sənəddə Azərbaycanın Qarabağda yaşayan ermənilərə aid öhdəliklərinin təsdiq edilməsini istəyir: "Bizim qarşımızda duran əsas problem budur. Digər tərəfdən, Azərbaycanın ərazi bütövlüyünün rəsmən tanınması o demək deyil ki, buna praktik şəkildə əməl olunacaq. Çünki ərazi bütövlüyünün tanınması o zaman tam şəkildə bitəcək ki, delimitasiya və demarkasiya danışıqları sona çatsın. Həmçinin xəttin tanınması da, suverenliyin tam şəkildə tanınması demək deyil.

**T.Zülfüqarovun sözlərinə görə, Ermənistan kobud şəkildə Azərbaycanın suveren hüquqlarını pozur və daxili işlərinə müdaxilə edir:** "Məsələn, onların dövlət büdcəsində Azərbaycana qarşı fəaliyyət göstərən ünsürlərin maliyyələşdirilməsi haqqında xüsusi bənd var. Yəni demək olar ki, Qarabağda özlərini "parlament və Prezident" adlandıran şəxslər pulu Ermənistandan alır. Bu vəziyyəti praktiki şəkildə dəyişmək lazımdır. İstər Vaşinqton, istərsə də digər formatlarda, məsələ həll edilmədikcə, sülh sazişinin imzalanması real deyil".

**Nihat Müzəffər**

# Şərur sakini ən yüksək nəticə göstərdi

## O, hər iki mərhələnin cəminə görə 690.7 bal toplayıb



**II və III ixtisas qrupları üzrə mayın 20-21-də keçirilmiş qəbul imtahanlarında ən yüksək nəticə göstərənlər açıqlanıb.**

Dövlət İmtahan Mərkəzindən verilən məlumata görə, bu imtahanda II ixtisas qrupu üzrə isə ən yüksək nəticəni 394.0 bal toplayan Şərur rayon Kürçülü kənd tam orta məktəbinin məzunu göstərib. O, imtahanın birinci mərhələsində 296.7 bal toplayıb. Hər iki mərhələnin cəminə görə II ixtisas qrupu üzrə ən yüksək nəticə (690.7 bal) də ona məxsusdur.

*III ixtisas qrupu üzrə ən yüksək nəticəni (392.5 bal) 2 nəfər - Bakı şəhər S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyası və Ağdaş rayon M.Şeyxzadə adına Texniki, təbiət və humanitar təmayüllü gimnaziyanın məzunları göstəriblər. S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyasının məzunu imtahanın I mərhələsində 286.8 bal toplayıb və III ixtisas qrupu üzrə yüksək nəticə (679.3 bal) də ona məxsusdur.*



# Balansın saxlanılması vacibdir

## Samir Şərifov: "Dövlət borcunun çox olması siyasi müstəqilliyimizi də sual altına qoya bilər"

**"Azərbaycan Hava Yollarının (AZAL) hesabında subsidiyanın qalıq kimi qalmasını qəbahət kimi görmürük". Bunu Milli Məclisin dünənki iclasında "2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı maliyyə naziri Samir Şərifov deyib. Nazir bildirib ki, Azərbaycan Hava Yollarına (AZAL) verilən subsidiyanın onun hesabında saxlanılması məsələsi qaldırılmışdı:**

"Subsidiya bir neçə halda verilir. Subsidiyalar ayrılan şirkətlər tərəfindən mütləq şəkildə istifadə olunmalıdır. AZAL-ın hesabında bu subsidiyanın qalıq kimi qalmasını qəbahət kimi görmürük. Bizdə olan məlumata görə, AZAL-ın hesabında 8,3 milyon manat qalıq il sonunda qalmışdı".

**"Yoxlamalar zamanı qaytarılmayan vəsaitlərlə bağlı hüquq-mühafizə orqanlarında işlər var"**

Samir Şərifov vurğulayıb ki, məktəblərin əsaslı təmiri, əlverişli biznes mühitinin yaradılması və işsizliklə bağlı problemin həll edilməsi ilə bağlı məsələlər qaldırılmışdı. Nazir bildirib ki, hökumət bu məsələlərlə çox ciddi məşğul olur: "Təhsil sahəsində işlərlə bağlı biz ciddi işlər görürük. Aidiyyəti dövlət orqanlarına məlumatları çatdırırıq". S.Şərifov milli ensiklopediya ilə bağlı qaldırılan məsələyə də münasibət bildirib: "Büdcədən bunun üçün pul ayrılır, amma satışla bağlı məsələyə mən hazırda cavab verə bilmirəm". Nazir həmçinin maliyyə nəzarətinin təmin olunması məsələsinə də toxunub: "Yoxlamalar zamanı vəsaitlərin bir hissəsinin qaytarılmasına nail olunub, qaytarılmayan hissələrlə bağlı hüquq-mühafizə orqanlarında işlər var. Məsələni nəzarətdə saxlayacağıq".

**"Borclanmaları götürərkən bizim konkret hədəflərimiz və strategiyamız var"**

Maliyyə naziri qeyd edib ki, Azərbaycan üçün dövlət borcunun çox olması nəinki iqtisadi, hətta siyasi müstəqilliyimizi də sual altına qoya bilər. Nazir bildirib ki, Prezident tərəfindən təsdiqlənən borc strategiyamız var: "Bizim üçün dövlət borcunun çox olması qəbuledilməzdir. Biz xarici borclanmaları da həyata keçiririk. Bu borclanmaları götürərkən bizim konkret hədəflərimiz və strategiyamız var. Bu gün də biz bu strategiyaya uyğun tədbirlərimizi həyata keçiririk. Əksər kredit reytinq agentlikləri Azərbaycana kredit verərkən ilk olaraq bizim borc vəziyyətimizi təhlil edir".

**"Dövlət büdcəsinin xərclərinin 10 faiz artırılması nəzərdə tutulur"**

Samir Şərifov bəyan edib ki, təqdim olunmuş qanun layihəsi ilə dövlət büdcəsinin xərclərinin 10 faiz artırılması nəzərdə tutulur: "Bununla yanaşı dövlət büdcəsinin təsdiq olunmuş bəzi xərcləri də optimallaşdırılacaq və əlavə maliyyə təminatı yaradılacaq. Cari ilin ilk 5 ayında Dövlət Neft Fondundan transferti nəzərə almasaq, dövlət büdcəsinin əlavə gəlirləri 2,6 milyard manat təşkil edib. Dövlət büdcəsinin artırılan əsas xərcləri Qarabağ və Şərqi Zəngəzurun bərpasına yönəldiləcək".

**"Prioritetimiz Qarabağ və Şərqi Zəngəzura "Böyük Qayıdış"dır, sonra digər ehtiyaclar üçün vəsaitlər ayrılır"**

Maliyyə naziri diqqətə çatdırıb ki, balansın saxlanılması vacibdir, amma bizim prioritetlərimiz var: "Maliyyə ehtiyatlarının qorunub saxlanması da Azərbaycan üçün prioritetdir. Bizim prioritetlərimiz Qarabağ və Şərqi Zəngəzura "Böyük Qayıdış"ı təmin etmək, müdafiə qabiliyyətimizi gücləndirməkdir. Ondan sonra digər zəruri ehtiyacların təmin edilməsi üçün maliyyə imkanları çərçivəsində maliyyə vəsaiti ayrılır. Dövlətin təhlükəsizliyinin və iqtisadi təhlükəsizliyin təşkili üçün maliyyə ehtiyatlarımız qorunub saxlanılmalıdır".

**İsmayıl Qocayev**

# Putin vətəndaş müharibəsi ilə üzləşib

## Qələbə əvəzinə Rusiya 200 mindən çox hərbçisini və böyük sayda hərbi texnikasını itirib

**"Bir çox yerlərdə güclü və dərin istehkamlara baxmayaraq, ruslar bütün cəbhə xətti boyunca Ukrayna qüvvələrinin əks-hücumunun qarşısını ala bilməyəcək. Ukraynalılar bu boşluqları tapıb uğur qazanmaq üçün onlardan istifadə etməlidir".**



"Müharibə Rusiya ərazisinə keçib. Ona görə də Putindən hesab sormaq istəyənlərin sayı artmağa başlayıb"

Bunu ABŞ-nin müdafiə naziri Lloyd Ostin deyib. Nazirin sözlərinə görə, Rusiyanın işğal etdiyi ərazilər boyunca müdafiə və bir çox hallarda dərindən müdafiə qurduğu hamıya məlumdur: "Biz bir neçə istehkam xətti, xəndəklər, "əjdaha dişləri", hazırlanmış mövqelər və s. görürük. Ona görə də ruslar təbii ki, hər yerdə güclü ola bilməzlər. Ukraynalılar istifadə edə biləcəkləri üstünlükləri tapmalıdırlar", - o bildirib. Ukrayna Silahlı Qüvvələri Baş Qərargahının məlumatında bildirilib ki, rusların dörd istiqamətdə - Liman, Baxmut, Avdeyevski və Maryinka üzrə hücumları uğursuzluqla nəticələnib. Marinka bölgəsində rusların səkkiz hücumunun hamısı dəf edilib. Eyni zamanda ruslar yaşayış məntəqəsi hüdudlarında havadan zərbələr endirib. Qeyd olunub ki, Rusiya qoşunları Zaporojye və Xerson istiqamətlərində də müdafiə əməliyyatlarını davam etdirir. Məlumat üçün bildirək ki, Kaxovka SES-in bəndi ruslar tərəfindən partladılıb. Su altında qalmaq təhlükəsi ilə üzləşən Dneprin sağ sahilində yaşayan sakinlərin təxliyəsi elan edilib. Ekspertlərə görə, Rusiyanın Kaxovka su elektrik stansiyasını bombalaması Ukraynaya qarşı müharibənin yeni mərhələyə qədəm qoymasıdır. Ukraynanın xarici işlər naziri Dmitri Kuleba bildirib ki, bu, Avropada əsrin ən böyük texnogen fəlakətidir: "Rusiyanın Kaxovka SES-i bombalaması dəhşətli müharibə cinayəti və yəqin ki, son onilliklərdə Avropadakı ən böyük texnogen fəlakətdir. Minlərlə mülki insanın həyatı təhlükə altındadır. Bu, dəhşətli müharibə cinayətidir. XXI əsrin ən böyük terrorçusu olan Rusiyanı dayandırmağın yeganə yolu onu Ukraynadan qovmaqdır". Ukrayna Daxili İşlər Nazirliyi məlumat yayıb ki, Rusiya artilleriyası Xerson vilayətinin su altında qalan ərazilərindən təxliyə olunan insanları atəşə tutub: "Xersonda təxliyə həyata keçirən iki polis qəlpə yarası alıb. Təxliyə elan olunub, amma ruslar artilleriya atəşi ilə imkan vermirlər".

Danimarka Baş naziri Mette Frederiksen isə deyib ki, Ukraynanın müttəfiqləri nünaqişənin sülh yolu həlli üçün Rusiyadan siqnal gözləyir: "Düşünürəm ki, hər kəs sülhdə maraqlıdır. Biz hələ də Rusiyanın siqnalına ehtiyac duyuruq". Hökumət başçısı obrazlı formada əlavə edib ki, tanqo rəqsi üçün iki nəfər gərəkdir və müttəfiqlər Ukrayna olmadan heç nə etmək fikrində deyil.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi şiddətinə görə heç bir sərhəd tanımır. Analitik qeyd edib ki, Rusiya insanların və təbiətin fəlakətinə səbəb olan böyük hidroelektrik stansiyasını raket zərbəsi ilə dağıdır. Üstəlik, bu zaman özününkülər də əziyyət çəkir:** "Kreml Ukrayna ordusunun əks-həmləsinin qarşısını almaq məqsədilə başqa təxribatlara da əl ata bilər. Bunlardan birini Rusiyanın "Vaqner" muzdlu qruplaşmasının rəhbəri Yevgeni Priqojin səsləndirib. Onun fikrincə, Rusiya hərbçiləri Belqorod vilayətinə nüvə bombası ata bilər. Kreml Rusiya ərazisinə nüvə silahı niyə atsın ki? Priqojin bu sualı bu şəkildə cavablandırıb: "Rusiya öz ərazisinə nüvə bombası ataraq Belqoroda doğru geri çəkildiyimiz təəssüratını yaratmaq istəyəcək". Priqojin bu cavaba ironik əlavəsini də unutmayıb: "Özümüzə atsaq, ruhi xəstə olduğumuzu göstərəcəyik". Rusiya Prezidenti Vladimir Putin bu ağılda olan şəxsə muzdlu qruplaşma yaratmağı və savaşın ön sıralarında qərar tutmağı necə həvalə edib? Ancaq Putinin digər dostu və Rusiyanın eks-prezidenti Dmitri Medvedyevin daha məntiqsiz açıqlamalar verdiyini nəzərə aldıqda Kremldəkilərin çoxunun düşüncə tərzinin oxşar olduğu qənaətinə gəlmək mümkündür".

**Politoloqun qənaətincə, Rusiya 100 ildən sonra ikinci dəfə vətəndaş müharibəsi ilə üzləşib:** "100 il əvvəl Rusiya imperiyasının dağıntıları üzərində qırmızılar ağlarla savaşırdılar. Bugünlərdə Ukraynadan Rusiya ərazisinə keçən və özlərini "Rusiya Könüllü Korpusunun" döyüşçüləri adlandıran silahlı birliklər Belqorod şəhərinin ətrafındakı müxtəlif məntəqələri ələ keçiriblər. Rusiya ordusu rus könülllləri qəsəbədən sıxışdırıb çıxara bilməyib. Başqa sözlə ruslar ruslarla savaşırlar. Rusiya hazırda iki cəbhədə savaşmaq məcburiyyətində qalıb. Ukraynada müharibəni davam etdirərəkən, öz ərazisində də hərbi əməliyyatları genişləndirmək məcburiyyətindədir. Kreml sahibi Rusiya cəmiyyətini inandırmışdı ki, "böyük Rusiya" yaratmaq məqsədilə Krımı ələ keçirib və Ukraynanın şərqini Rusiyaya birləşdirmək istəyir. Putinin ətrafı və cəmiyyətin əksər hissəsi ona dəstək verdi, düşünürdülər ki, Rusiya ordusu bir neçə həftəyə məsələni həll edəcək və ordu qələbəylə geri qayıdacaq. Həmin tarixdən 15 ay keçib, qələbə əvəzinə Rusiya 200 mindən çox hərbçisini və böyük sayda hərbi texnikasını itirib, iqtisadiyyatı zəifləyib, inflyasiya dərinləşib. Üstəgəl, Avropaya neft və qaz sata bilmir, müharibə Rusiya ərazisinə keçib. Ona görə də Putindən hesab sormaq istəyənlərin sayı artmağa başlayıb".

**İsmayıl Qocayev**

# "Problemləri qaldırmaqdan özüm də bezmişəm"

## Tahir Kərimlini eşidən yoxdur, vətəndaşların qarşısına çıxa bilmir



**"Deputatlar Milli Məclisdə vətəndaşların üzləşdikləri problemləri qaldırsa da, bununla bağlı heç bir tədbir görülmür. Elə özümüz deyib, özümüz eşidirik".**

Bunu deputat Tahir Kərimli Milli Məclisin növbədənkənar iclasında deyib. Deputat bildirib ki, vətəndaşların qarşısına çıxmaqda çətinlik çəkirlər, çünki dəfələrlə gündəmə gətirilən problemlər həllini tapmır: "Ağsu yolu, Şamaxı və Ağsu rayonlarında zəlzələdən zərər çəkmiş evlərin təmiri, məktəb və xəstəxanaların tikintisi ilə bağlı məsələ qaldırsaq da, nəticəsi olmur. Artıq bu məsələləri qaldırmaqdan özüm də bezmişəm. Özümüz deyib, özümüz eşidirk".

Deputat əlavə edib ki, əgər hökumət problemləri həll etmək iqtidarında deyilsə, bunu açıq desinlər: "Desinlər ki, gücümüz çatmır. Əvvəllər seçicilərlə görüşəndə bizi qınayırdılar ki, niyə problemlərimizi qaldırmırsınız? Amma indi deyirlər ki,  nə olsun ki, problemləri qaldırırsınız, nəticə yoxdur. Onda bunun nə xeyri var? Hökumətdən xahiş edirəm ki, heç olmasa, qaldırdığımız məsələlərlə bağlı bizə mənfi, yaxud müsbət cavab versin".

**İsmayıl**

# "Azərbaycanın istəkləri nəzərə alınmalıdır"

## Politoloq: "Demarkasiya prosesində təkcə İrəvan yox, rəsmi Bakı da iştirak edir"



**Uzun müddətdir Baş nazir Nikol Paşinyan da daxil olmaqla, Ermənistan rəsmilərinin, guya, Azərbaycan və Ermənistan sərhədinin delimitasiya prosesində 1975-ci il xəritəsindən istifadə ediləcəyi və buna Azərbaycan tərəfinin də razılıq verdiyi barədə iddialarına, nəhayət, Bakıdan cavab verilib.**

Azərbaycan XİN-in Ermənistan TŞ katibi Armen Qriqoryana cavabında bu məsələyə ətraflı toxunulub.

Qeyd edilib ki, həm Praqa, həm də Soçi görüşü üzrə bəyanatlara əsasən, delimitasiyanın ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı tanınması əsasında həyata keçirilməsi nəzərdə tutulub: "Ümumiyyətlə, bu bəyanatlar BMT nizamnaməsinə və Almatı Bəyannaməsinə istinad qeyd edilən prinsiplər kontekstində verilib. Bu və digər bir görüşdə delimitasiyanın hansısa xəritə əsasında həyata keçirilməsi barədə hər hansı bir razılıq olmadığı Ermənistan tərəfinə yaxşı məlumdur".

Azərbaycan XİN açıq şəkildə bəyan edib ki, beynəlxalq təcrübəyə əsasən, Ermənistandan fərqli olaraq, Azərbaycanın indiyə qədər bəzi qonşuları ilə həyata keçirdiyi delimitasiya prosesi xüsusi olaraq seçilmiş xəritə əsasında deyil, bütün hüquqi əhəmiyyəti olan sənədlərin təhlili və nəzərdən keçirilməsi əsasında baş tutub.

**Danışıqlar mətnini özlərinə uyğunlaşdırmağın Ermənistanın adəti olduğunu deyən politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, bizim bu mövzuda kifayət qədər təcrübəmiz var:** "Azərbaycan delimitasiya işini yeni aparmır. Biz Gürcüstan və Rusiya ilə də delimitasiya proseslərini aparmışıq. Həmçinin bu proseslərdə sovet dönəmindən olan xəritələrlə yanaşı, yerli inzibati xəritələr istifadə olunub. Hətta müəyyən danışıqlarda tərəflərin mövqeləri dəqiqləşdirilib. Yəni ortada vahid meyar yoxdur və komissiya ona görə yaradılır ki, müxtəlif nüanslar nəzərə alınaraq proses davam etsin".

Analitik qeyd edib ki, Ermənistan özünəməxsus şəkildə vəziyyəti yozmaq istəyir: "Onlar artıq öz şərtlərimiz üzərindən prosesi aparacağıq və Ermənistan öz mövqelərini təmin edəcək görüntüsü yaratmağa çalışır. Bu isə belə deyil. Sadəcə, rəsmi İrəvan daxili auditoriyaya səslənir. Çünki erməni cəmiyyətində delimitasiya ilə bağlı müəyyən narahatlıqlar var. Amma delimitasiya və demarkasiya prosesində təkcə İrəvan yox, rəsmi Bakı da iştirak edir. Ona görə də Azərbaycanın istəkləri nəzərə alınmalıdır".

**Nihat Müzəffər**

# Dərmanların qiyməti 7-8 dəfə bahalaşıb

## Fazil Mustafa: "Bunun qarşısını almaq üçün ciddi tədbirlər görülmür"



"Türkiyə bazarından dərman istehsalını Azərbaycana yönəltməyi bacarmadıq. Banqladeşin, Hindistanın dərman preparatlarını gətiririk"

**"Gəlirlərin əsas hissəsi ölkənin müdafiə qabiliyyətinə, təhlükəsizlik məsələlərinə və "Böyük Qayıdış"a sərf olunur. Təqribən 2 milyard 260 milyon manat "Böyük Qayıdış" üçün, 1,1 milyard manat isə təhlükəsizlik və müdafiə qabiliyyətinə ayrılıb.**

Ona görə bu büdcəni "Qarabağ-Zəngəzur" büdcəsi də adlandırmaq olar". Bunu Milli Məclisin "2023-cü il dövlət büdcəsi haqqında" qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı millət vəkili Fazil Mustafa deyib. Deputat bildirib ki, bunlar müsbətdir və millət vəkili olaraq dövlətin, dövlət başçısının addımlarını dəstəkləyirlər: "Amma digər məsələləri də unutmamalı, yeni vasitələr tapmalıyıq. Bu da büdcənin öz içindən çıxarılmalıdır. Büdcədə müəyyən xərclərin azaldılmasına, ixtisarlara ehtiyac var. Ölkənin qida təhlükəsizliyi, su ehtiyatlarının azalması, əhalinin sosial müdafiəsində yaranmış çətinliklərlə bağlı ciddi problemlər mövcuddur. Ona görə də bu vəsaitlərin haradan tapılmasını müəyyənləşdirmək lazımdır. Büdcənin içində bu imkanlar kifayət qədərdir. Bir neçəsini sadalaya bilərəm. Olimpiya idman komplekslərinin və digər idman qurğularının saxlanmasına 9,4 milyon, gənclər evlərinə 4,3 milyon manat vəsait ayrılır. Bunların özəlləşdirilməsini həyata keçirmək lazımdır ki, əlavə vəsaitlər yaransın və sosial təminata vəsait ayıra bilək. Vətəndaşın cibindən vergi, rüsum, cərimə və qiymət spekulyasiyası ilə çıxarılan hər vəsait sadəcə yoxsullaşmış insan sayını artırmır, həm də iqtisadiyyatımızın insan qolunu çökdürür. Dünən qəbuluma gəlmiş yaşlı bir Əməkdar müəllim 78 manatlıq bələdiyyə üçün illik əmlak vergisini ödəyə bilmədiyini izah edirdi. Dərmanlarına 300 manat pul xərclədiyini deyirdi. Dərman ona görə 300 manat pul tutur ki, 100 manatlıq dərmanı 300 manata almalı olur. Dərmanların qiyməti 7-8 dəfə bahalaşıb və bunun qarşısını almaq üçün ciddi tədbirlər görülmür. Türkiyə bazarından dərman istehsalını Azərbaycana yönəltməyi bacarmadıq. Banqladeşin, Hindistanın dərman preparatlarını gətiririk. Avropa dərmanları bazarımızdan çıxıb. Heç olmasa, bu tip problemləri həll etməliyik ki, vətəndaş ən azı bələdiyyəyə illik əmlak borcunu ödəmək imkanına malik olsun".

**İsmayıl**



# Maaş və pensiyalar yenidən artırılsın

Ərzaq qiymətlərində 20 faiz, dərman qiymətlərində 40 faiz inflyasiya olub

**Dünən Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində ilk iclası keçirilib. Növbədənkənar sessiya Dövlət Himninin səslənməsi ilə başlayıb. İclasda 2023-cü ilin dövlət büdcəsinə dəyişikliyin edilməsi ilə bağlı qanun layihəsi müzakirə olunub.**

Milli Məclis Sədri Sahibə Qafarova 2023-cü ilin dövlət büdcəsinə dəyişikliyin səbəblərini açıqlayıb. Sədr bildirib ki, bu gün Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir: "Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət ötən beş ayda makroiqtisadi sabitliyi daha da möhkəmləndirməyə imkan yaradıb. Azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin sürətləndirilməsi, müdafiə və təhlükəsizlik xərclərinin artırılması məqsədilə 2023-cü il büdcəsinə dəyişiklik etmək ehtiyacı yaranıb".

**"Yol, rabitə su problemləri də büdcə hesabına həll edilsin"**

Millət vəkili Vahid Əhmədov bildirib ki, 2022-ci ildən bu yana ərzaq qiymətlərində 20 faiz, dərman qiymətlərində 40 faiz inflyasiya olub. O, dövlət büdcəsi hesabına bəzi problemlərin həll edilməli olduğunu deyib: "Bunun qarşısını almaq üçün çox ciddi tədbirlər həyata keçirilməlidir. Xahiş edirəm ki, Rəqabət Məcəlləsi Milli Məclisə daxil olunsun. Bundan başqa maaş və pensiyaların artırılması məsələsi də müzakirə olunsun. Düzdür, artımlar var, amma bu da bəzən qiymət artımının qarşısında yetərli olmur. İstərdim ki, yol, rabitə su problemləri də büdcə hesabına həll edilsin".

**"Qazilərə münasibət məsələsi var, onlar hamısı bizim müdafiə sistemimizin içindədir"**

Deputat Sabir Rüstəmxanlı deyib ki, büdcə xərclərində müdafiə qabiliyyətinin güclənməsini düşünürük. Amma ölkənin içi də gücləndirilməlidir: "Bu gün sosial müdafiədə, məmur-vətəndaş münasibətlərində problemlər var, bunu gizlətmək lazım deyil". Deputat bildirib ki, ordunu gücləndirməklə paralel ölkənin daxilində əhalinin sosial müdafiəsi də gücləndirilməlidir: "Qazilərə münasibət məsələsi var, onlar hamısı bizim müdafiə sistemimizin içindədir. Mən sual etmək istəyirəm ki, DSMF və İşsizlikdən Sığorta Fonduna artımların neçə faizi bizim burada qaldırdığımız məsələlərin həllinə yönəldiləcək? Biz dəfələrlə qazilərin işsizliyi, işsizlik problemi, məmur-vətəndaş münasibətlərində problemləri qaldırmışıq. Bu gün yeni gələn məmur öz komandasını gətirir". S.Rüstəmxanlı ailələrin uşağı uşaq bağçasına qoya bilməməsindən də şikayətlənib: "Ailə uşağını bağçaya qoymaq üçün qapı-qapı gəzir. Niyə belə olmalıdır? Uşaqların məktəblərə qəbul olunması qəsdən çətinləşdirilir. Uşaqlar qəsdən rus məktəblərinə yönəldilir".

**"Sertifikasiyada 11 min müəllimdən 2800-ü imtahandan keçmədi"**

Deputat Etibar Əliyev deyib ki, ötən il sertifikasiyada 11 min müəllimdən 2800-ü imtahandan keçmədi. İmtahandan keçənlərdən isə 50 +1 bal toplayanları çox az idi: "Dövlət büdcəsindən pilot proqramların həyata keçirilməsinə vəsait ayrılır. Amma bunun nəticəsi barədə məlumat olmur. Pilot dövlət proqramlarının çoxu təhsil sahəsinə aiddir. Digər tərəfdən, hər bir xalqın milli ensiklopediyası həmin xalqın sərvətidir. Büdcədən milli ensiklopediyaya ayrılan pula qənaət edilib, amma satışda milli ensiklopediya yoxdur".

**"Səfirliklərimizin müdafiəsi gücləndirilməlidir"**

Deputat Elşən Musayev deyib ki, xaricdəki səfirliklərimizin müdafiəsi gücləndirilməlidir. O, xaricdəki səfirliklərin təhlükəsizliyi üçün büdcədən ayrılan maliyyənin artırılmasını təklif edib: "Keçən büdcə müzakirələrində sanki ürəyimə dammışdı, bu məsələni yenə qaldırmışdım. Üstündən qısa müddət keçəndən sonra İrandakı səfirliyimizə hücum oldu. Bizi gözü götürməyən dövlətlərin təxribatlarından hələ də sığortalanmamışıq".

**İsmayıl Qocayev**

# Naxçıvanın bütün imkanları üzə çıxacaq

## 11 prioritet istiqamət üzrə bölgənin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası prosesi sürətlənəcək

**"Prezident İlham Əliyev "Naxçıvan MR-in sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün dövlət proqramı"nı təsdiq edib. Naxçıvanın sistemli sosial-iqtisadi inkişafını hədəfləyən proqram bir sıra özəllikləri ilə fərqlənir".**

*Bu barədə millət vəkili Vüqar Bayramov deyib. İqtisadçı deputat bildirib ki, əvvəlla, proqramda mövcud vəziyyətin təhlili hərtərəfli, sistemli və obyektiv olaraq təqdim edilir:* "Bu, Naxçıvanda planlaşdırılan fəaliyyətlərin reallığı baxımdan çox vacibdir. İkincisi, yalnız qlobal trendlər deyil, eyni zamanda mövcud çağırışlar da proqramda ayrıca qiymətləndirilib. Çox vacib məqamlardan biri də proqramda GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlilindən istifadə edilməsidir. Bu, region ilə bağlı ətraflı və dolğun məlumatın əldə edilməsinə imkan yaradır. Məsələn, zəif tərəflərdə dövlət xidmətlərinə əlçatanlıq səviyyəsinin aşağı olması, maliyyəyə çıxış imkanlarının məhdudluğu, regionun enerji təchizatı və kommunikasiya xətlərinin aşağı səviyyədə diversifikasiya olunması, elektrik xətlərinin istismar müddətinin başa çatması, kənd təsərrüfatı və digər sahələr üzrə infrastruktur və su təminatı sistemində çatışmazlıqlar kimi istiqamətlər qeyd olunur. Bu qiymətləndirmə proqram çərçivəsində daha realistik planlaşdırma aparmaq baxımından vacibdir".



Parlament üzvünün sözlərinə görə, bununla yanaşı, Naxçıvanın təbii ehtiyatlar və xammal bazası, bərpa olunan enerji potensialı, beynəlxalq hava limanı və xarici ticarət üçün əlverişli iqtisadi-coğrafi mövqe kimi üstünlükləri də var: "Bunlar isə Naxçıvanın potensialının daha yaxından istifadə edilməsinə imkan yaradır. Bütövlükdə, proqramın məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Çox vacib istiqamətlərdən biri də məhz ölkə iqtisadiyyatına tam interqasiyadır ki, bu da bölgə və bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün yeni imkanlar deməkdir. Proqramda 11 prioritet istiqamət üzrə fəaliyyətlərin dəstəklənməsi nəzərdə tutulub. Yeni proqram Naxçıvan iqtisadiyyatının inkişafı üçün yeni imkanlar açacaq. Bu, Naxçıvana daha çox xarici və yerli sərmayələrin cəlb edilməsinə, məşğulluğun təmin olunmasına imkan yaratmaqla yanaşı, bölgənin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası prosesini sürətləndirəcək".

**İsmayıl**

# "Dövlət hələ ki kitab yazanlara diqqət göstərmir"

## Bahəddin Həzi: "Göstərirsə də, bu diqqət yazıçılara deyil, əsl yazıçıların hesabına şişən məmurlaşmış yazıçılara çatır"

**27 may - 4 iyun tarixində 5-ci Milli Kitab Sərgisi keçirilib. İçərişəhərdə Qoşa Qala meydanında baş tutan sərgidə nəşriyyat və kitab mağazaları ilə bərabər, müstəqil yazıçılar da iştirak edib. Xeyli sayda müəllif panel arxasında dayanaraq öz kitablarını satıb.**

Belə tədbirlərin təşkilində məqsəd ölkəmizdə kitaba, mütaliəyə, biliklərə marağı artırmaq, yaradıcı istedadlara dəstəkdir. Burada 70 mindən çox kitab 70 faizdək endirimlə satışa çıxarılıb. Sərgidə kitab təqdimatları, yerli və xarici yazarlarla görüşlər, imza günləri, panel müzakirələri, poeziya axşamları da keçirilib. Sərgidə nəşriyyatlar, yayım şirkətləri, yaradıcı təşkilatlar, əl işləri ilə məşğul olan sənətkarlar öz məhsullarını ziyarətçilərə təqdim ediblər. Belə tədbirlərin təşkilində məqsəd ölkəmizdə kitaba, mütaliəyə, biliklərə marağı artırmaq, yaradıcı istedadlara dəstəkdir.



**Sərgidə "Bizim yol"un baş redaktoru, şair-publisist Bahəddin Həzinin "Ölümcül həqiqətlər" kitabının təqdimatı və imza günü təşkil edilib. Təəssüratlarını "Şərq"lə bölüşən müəllif deyib ki, kitabın satışını özü yox, "Qanun" nəşrlər evi təşkil edib:** "Ölümcül həqiqətlər" kitabımın nəşr və kommersiya hüququ onlara aiddir. Xərci də nəşriyyatındır, qazancı da. Mən də başqa oxucular kimi kitabımı pulla alıram. Bu kitabdan hər hansı maddi qazanc ummamışam. Odur ki, neçə kitab satıldığını bilmirəm, maraqlanmamışam. Əksinə, Milli kitab sərgisində bir neçə gənc fəal oxucumuza kitab hədiyyə etdim. Ancaq ümumiyyətlə, bu sərgilərin əhəmiyyəti böyükdür. Mənim üçün böyük mənəvi dəyəri var. Bu sərgilər böyük mədəni hadisələrdir. Kitabı nə qədər çox təbliğ edə bilsək, oxutdura bilsək, o, şəxsən mənim üçün qazancdır. Ancaq yaxşı olardı ki, bu işə ya dövlət, ya imkanlı mesenatlar sahib çıxsın ki, yazıçılar, ümumiyyətlə, müəlliflər kitab yazmaqdan pul qazanıb normal dolana bilsin. Dövlət isə hələ ki diqqət göstərmir. Göstərirsə də, yazıçılara deyil, əsl yazıçıların hesabına şişən məmurlaşmış yazıçılara çatır bu diqqət".

**Şəymən**

# Rusiya Ukrayna ordusunun əks-hücum əməliyyatlarına hazır deyil

## "Moskva son addım kimi taktiki nüvə silahından istifadə etmək məcburiyyətində də qala bilər"

**"Kaxovka su elektrik stansiyasını (SES) Rusiya ordusunun 205-ci motoatıcı briqadası partladıb".**

**Bunu Ukrayna Prezident Ofisi başçısının müşaviri Mixaylo Podolyak müsahibəsində bildirib.**



O qeyd edib ki, Ukrayna kəşfiyyatının məlumatına əsasən, Kaxovka SES-i Rusiya Silahlı Qüvvələrinin 205-ci motoatıcı briqadası partladıb: "İlkin məlumatlara əsasən deyə bilərik ki, partlayışı 205-ci motoatıcı briqada həyata keçirib. Hazırda bütün informasiyalar yoxlanılır".

**Hadisəni dəyərləndirən siyasi-şərhçi Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, bu hücumu Rusiyanın savaşa tab gətirə bilməməsinin əlamətlərindən biri kimi dəyərləndirmək olar:** "Çünki son məlumatlarda Ukrayna ordusunun əks-hücum əməliyyatlarına başlamasından öncə Kremlin hərbi və siyasi dairələrində ciddi təşviş yaşanır. Digər tərəfdən isə əməliyyatların artıq başladığı iddia olunur. Ancaq əslində bu əməliyyatlar hələ başlamayıb və sadəcə, Rusiya qoşunlarına hazırlıq zərbələri endirilir. Həmin zərbələrdən sonra isə Rusiya ordusunun müdafiə qabiliyyətini itirdiyi hiss olunur. Yəni Rusiya Ukrayna ordusunun əks-hücum əməliyyatlarına hazır deyil. Bu səbəbdən də Kremlin hərbi-siyasi elitası çalışır ki, mülki-strateji obyektlərə zərbələr endirərək Ukrayna ordusunu əməliyyatlardan imtina etməyə məcbur etsin və ya bunu ləngitsinlər".

Analitikin sözlərinə görə, müşahidələr rəsmi Kiyevin əks-hücum əməliyyatlarından imtina etmək niyyətində olmadığını göstərir: "Hətta Ukrayna ordusunun hücuma keçməyə tam hazır olduğu barəsində bəyanatlar belə verilir. Böyük ehtimalla bu əməliyyat yaxın günlərdə genişmiqyaslı şəkildə start götürəcək. Digər tərəfdən, SES-ə endirilən zərbə, daha bir təhlükəli tendensiyadan xəbər verir. Ehtimal var ki, Rusiya SES-ə hücum istəyinə nail olmasa, sonrakı mərhələdə Ukraynada olan atom elektrik stansiyalarına da zərbə endirsin. Hətta Moskva son addım kimi taktiki nüvə silahından istifadə etmək məcburiyyətində də qala bilər".

**Nihat Müzəffər**

# Unun qiyməti bahalaşa bilər

## Dünya bazarında da vəziyyət ürəkaçan deyil

**"Dünya bazarında taxılın qiymətində müəyyən qədər artım müşahidə olunur".**



Bunu "Şərq"ə iqtisadçı Natiq Cəfərli unun qiymətinin artacağı ilə bağlı iddialara münasibət bildirərkən deyib. Onun sözlərinə görə, bu il Ukraynanın bazara taxıl çıxarmağında ciddi problemlərin olacağı gözlənilir: "Ukrayna və Rusiya arasında taxıl anlaşması iki aylıq uzadıldı. Sözügedən müqavilənin Türkiyənin təşəbbüsü ilə yenidən uzadılması barədə hələ ki ilkin razılaşmalar yoxdur. Bu da dünya bazarında taxılın bahalaşacağı ilə bağlı fikirləri formalaşdırır. Eyni zamanda Rusiya taxılının da dünya bazarına çıxmasında logistik problemlər, çətinliklər mövcuddur. Bu da qiymət artımına təsir göstərən faktordur. Azərbaycan isə cəmi 25 faiz daxili istehsal hesabına özünü un, buğda ilə təmin edir. Yerdə qalan 75 faizi xaricdən alır. Ölkəmizin indiki durumunda xaricdən aldığımız un və taxılın qiyməti artdıqca, daxili bazarda da artım müşahidə olunacaq".

Qeyd edək ki, unun qiymətinin bahalaşacağı iddia olunur.

**Sücayət Mehti**

# Paşinyan separatçılara nəzarəti tamam itirib

## Silahlı ünsürlər birbaşa Rusiyanın nəzarətindədir

**Ermənistanın Qarabağı Azərbaycan ərazisi kimi tanıması Xankəndidəki separatçıları əhəmiyyətli dərəcədə radikallaşdırıb. Rusiyalı politoloq İqor Korotçenko son dövrlər Qarabağdakı qanunsuz silahlı birləşmələrinin Azərbaycan Ordusuna qarşı təxribatlarını şərh edərkən bildirib ki, Qarabağda silahlı təxribatlar və terror aktları gözləntisi çoxdur.**



"Qarabağ separatçıları İrəvana tabe olmur və bütün direktivləri Kremldən alırlar"

Onun sözlərinə görə, separatçıların daha da radikallaşması müxtəlif ölkələrdə erməni diasporunun Qarabağ mövzusunda siyasi səylərini artması ilə üst-üstə düşür: "Bütün bu amilləri birləşdirəndə, təxribatların baş verəcəyi kifayət qədər real görünür. Bəlkə də bu təxribatlar yaxın gələcəkdə törədiləcək". Rusiyalı politoloq hesab edir ki, Paşinyan Qarabağ separatçıları üzərində nəzarəti itirir: "Paşinyan hakimiyyəti artıq separatçıların davranışlarına tam nəzarət edə bilmir. Qismən nəzarət qala bilər, lakin tam deyil. Unutmaq olmaz ki, Qarabağda təkcə erməni yaraqlıları yox, həm də Ermənistan Müdafiə Nazirliyinin əmri ilə hərəkət edən silahlı dəstələr var. Bununla yanaşı, Ermənistanın hərbi kəşfiyyatının nümayəndələri də Qarabağdadır". Korotçenko bildirib ki, İrəvanın nəzarəti xeyli dərəcədə azaldığı üçün artıq erməni silahlı dəstələri "müstəqil" hərəkət edirlər.

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə açıqlamasında bildirib ki, Rusiya sülhməramlıları Qarabağ ərazisinə daxil olduğu gündən İrəvan separatçılara nəzarəti itirib. Analitik hesab edir ki, hazırda separatçılar və silahlı ünsürlər birbaşa Rusiyanın nəzarətindədir:** "Qarabağ separatçıları İrəvana tabe olmur və bütün direktivləri Kremldən alırlar. İndiki məqamda separatçıların "cəsarətlənməsinin" arxasında Moskva durur. Ruben Vardanyan və Araik Arutyunyan Rusiyaya hər səfərlərindən sonra müharibə ritorikasından danışır, rəsmi Bakını təhdid edirlər. Separatçılar Rusiyanın əlində təsir rıçağıdır. Moskva Azərbaycan-Ermənistan arasında sülh sazişinin imzalanmasında maraqlı deyil. Çünki sülh müqaviləsinin imzalanmasından sonra Rusiyanın nə Ermənistanda, nə də Azərbaycanda mövcudluğunun mənası qalır. Moskvanın qorxusu sadəcə Rusiya sülhməramlı kontingentinin Qarabağdan çıxarılması ilə bağlı deyil, Kreml ehtiyat edir ki, sabah ermənilər də rus bazasının Gümrüdən çıxarılmasını tələb edə bilər. Bununla da Moskva Cənubi Qafqazda bütün rıçaqlarını itirmiş olar. Ona görə də hər vəchlə separatçılara silah-sursat, eyni zamanda vəd verərək, onları "ruhlandırırlar". Çalışırlar ki, separatçılar sonadək Azərbaycana müqavimət göstərsinlər, prosesi pozsunlar".

**İsmayıl Qocayev**



# İnsanlar o qədər maaş almır ki...

Tətbiq edilən cəzalar orta statistik azərbaycanlının büdcəsinə uyğun deyil

“Taariflər müəyyənləşərkən insanların əməkhaqqı nəzərə alınmalıdır”

**Avtomobil yollarının saxlanılması və qorunması qaydalarının pozulmasına görə cərimələr 5 dəfədən çox artırılır. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişiklik ediləcək.** Buna qədər avtomobil yollarının saxlanılması, qorunması və abadlaşdırılması qaydalarının pozulmasına, yaxud avtomobil yollarında təhlükəsiz hərəkət şəraitinin yaradılmamasına görə vəzifəli şəxslər 100 manatdan 150 manatadək məbləğdə, hüquqi şəxslər 1 000 manatdan 2 000 manatadək məbləğdə cərimə edilirdi. Dəyişikliklə isə avtomobil yollarının saxlanılması, qorunması və abadlaşdırılması qaydalarının pozulmasına, yaxud avtomobil yollarında təhlükəsiz hərəkət şəraitinin yaradılmamasına görə vəzifəli şəxslər 500 manatdan 800 manatadək məbləğdə, hüquqi şəxslər 2 000 manatdan 3 000 manatadək məbləğdə cərimə olunacaq.

**Nəqliyyat problemləri üzrə ekspert İlqar Hüseynli ”Şərq”ə açıqlamasında məsələyə 2 prizmadan yanaşdığını qeyd etdi:**

- Sosioloq olaraq əvvəla bu suala aydınlıq gətirmək istəyirəm: cərimələr lazımdırmı? Bəli, cərimələr lazımdır. Niyə? Çünki apardığımız müşahidələr, tədqiqatlar onu göstərir ki, radarların və təhlükəsizlik kameralarının olmadığı, quraşdırılmadığı dövrlərdə yol-nəqliyyat qəzaları, yol-hərəkəti qaydalarının, eləcə də yol-istismar qaydalarının pozulması halları daha çox idi, hətta yol qəzalarının forması da başqa idi. Bunu statistika deyir. Sürücülərin 95 faizi təhlükəsizlik kəməri taxmırdı. Sürücülər piyada zolağında piyadalara yol vermirdi. Yol-nəqliyyat və digər qəzaların, qaydaların pozulması halları radarların, təhlükəsizlik kameralarının quraşdırılmasından sonra kəmər taxılmaması, piyadaları keçidlərdə görməzdən gəlmək halları azalıb. Bu da cəzaların sərtləşməsinin nəticəsidir. Son dövrlərdə təhlükəsizlik kəməri taxmayan çox az sürücü görə bilirik. Sürücülər piyadalara qarşı da daha həssas olub. Mən cəzaların sərtləşməsinin yol-nəqliyyat qəzalarının sayını minimuma endirdiyini söyləmirəm. Amma müsbət dəyişiklik var. Bilirsiz, cəzalar insan psixologiyası nəzərə alınaraq tətbiq edilir. İnsan psixologiyası elədir ki, cəzasızlıq mühitində özünü sərbəst hiss etməyə başlayır və bunun getdikcə məsuliyyətsizliyə çevrilmə ehtimalı da böyükdür. Amma cəza mexanizmlərinin olduğunu biləndə insan istər-istəməz hərəkətlərinə diqqət etməli olur. Bəzən görürük, qarşıda radar olduğunu bilən sürücülər sürəti azaldır, avtomobili ”nümunəvi” idarə edir. Elə ki radarın əhatəsindən çıxdı, sürəti artırır. Yəni bu mənada cəzalar lazımdır. Qalır, ikinci məsələ. Bu da cəzaların taariflərindən ibarətdir. Aydın məsələdir ki, tətbiq edilən taariflər orta statistik azərbaycanlının büdcəsinə uyğun deyil. Taariflər müəyyənləşərkən insanların əməkhaqqı nəzərə alınmalıdır. Cəzalar minimum əməkhaqqını üstələyəcək miqdarda olmamalı, ailənin büdcəsinə uyğun olmalıdır. İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə baxanda isə bunun əksini görürük. İnsanlar o qədər maaş almır ki, bu qədər cərimə ödəyə bilsin. Hamını eyni miqdarda cərimələmək düzgün deyil. Bəzən sürücülər qaydaları bilməyərək pozurlar. Məsələn, bir yolun hansısa hissəsində sürət həddi əvvəlcə başqa olub, indi dəyişib, sürücü bundan xəbərsiz də ola bilər. Yaxud, yol nişanları bəzən doğru qoyulmur, sürücülər çaşqın vəziyyətdə qalır. Elə yollarımız var ki, piyadaların hərəkəti hədsiz dərəcədə məhduddur. İşıqforlar, yerüstü piyada keçidləri doğru müəyyənləşməyib. Belə şərait həm sürücülər üçün, həm də piyadalar üçün təhlükəlidir və qəzaları qaçılmaz edir. Qəzanın, qayda pozuntusunun mahiyyətinə baxmadan hamını kütləvi şəkildə cərimə etmək doğru deyil.

**Məlahət Rzayeva**

# "Ərdoğanın ən uğurlu varisi Hakan Fidandır"

“XİN rəhbəri kimi də təcrübəsini artıracaq adam qarşısında CHP-nin namizədinin uğur qazanması indiki halda imkansız görünür”









“Varislər arasında Selçuk Bayraktarın adı ara-sıra çəkilsə də, buna inanmıram, çünki onun gördüyü iş zatən Türkiyə üçün faydalıdır. Heç özünün də bu posta namizəd olacağına inanmıram”

**”Əvvəla, bu məsələnin 2028-ci ilə qədər qalmama ehtimalı da var. Hətta 2025-ci ildə erkən seçki ola bilər”.**

**Bunu ”Şərq”ə açıqlamasında Azərbaycanın mühacirət tarixinin tədqiqatçısı, Türkiyədə yaşayan araşdırmaçı-jurnalist, ”Çapar” jurnalının baş redaktoru Dilqəm Əhməd ”Ərdoğanın varisi kim olacaq” iddialarından danışarkən deyib.**

O bildirib ki, cənab Ərdoğanın yaşının artması, müəyyən sağlamlıq problemlərinin olması bu məsələni önə çəkə bilər: ”Prezidentin televiziya proqramında ani şəkildə narahatlıq keçirməsi və digər məsələlər onun özü tərəfindən bu addımın atılmasına səbəb ola bilər. Mənə elə gəlir ki, Ərdoğan məhz varis məsələsini həll etmək üçün bu dəfə də özü namizəd oldu. Təbii ki, 2001-ci ildən davamlı iqtidarda olan partiyanın rəhbəri kimi Ərdoğan özündən sonrakı vəziyyəti planlayacaqdır. Amma bundan əvvəl onun qarşısında daha başqa məsələ var. Bu, 1982-ci il Konstitusiyasını birdəfəlik dəyişdirməkdir. Görünür, gələnilki bələdiyyə seçkilərindən sonra buna başlayacaqlar. Konstitusiyadan sonra isə varis məsələsi gündəmə gələcək. Hazırkı məqamda ideal varis kimi adı ən çox hallanan keçmiş MİT sədri, indiki xarici işlər naziri Hakan Fidandır. Fidan prestijli, tanınan və türk ictimaiyyətində də qəbul edilən bir şəxsdir. Bu baxımdan kimsə təəccüblənməz. Əvvəllər Hulusi Akarın və Çavuşoğlunun da adı çəkilirdi, amma onların hər ikisini yola salmaqla üstündən xətt çəkilmiş oldu. Amma Fidanın önə çəkilməsi sanki yolunun açılması kimidir”.

*D.Əhməd əlavə edib ki, əsas məsələ ”müxalifət bu prosesə hazırdırmı” sualıdır:* ”Əgər CHP sədri istefa verməsə, bugünkü vəziyyətləri davam etsə, 2025 və ya 2028-ci ildə Fidanın onlara rahat şəkildə qalib gələcəyi şübhəsizdir. Son seçkidə AKP xüsusilə sosial mediada yeni texnologiyalardan istifadə edərək qələbə qazandı. CHP isə köhnəlmiş strategiyaya sadiq qaldığı üçün, xeyli problemə rəğmən qazana bilmədi. Hakan Fidan kimi dünyanı yaxşı bilən, yenilikləri mənimsəyən, üstəlik, XİN rəhbəri kimi də təcrübəsini artıracaq adam qarşısında CHP-nin namizədinin uğur qazanması indiki halda imkansız görünür. Varislər arasında Selçuk Bayraktarın adı da ara-sıra çəkilsə də, buna inanmıram, çünki onun gördüyü iş zatən Türkiyə üçün faydalıdır. Heç özünün də bu posta namizəd olacağına inanmıram. Onunla müqayisədə Fidan daha uğurludur. Bəzi jurnalistlər ara-sıra Bilal Ərdoğanın da namizəd olacağını yazsalar da, Türkiyə adətlərində bu hala icazə veriləcəyini heç cür qəbul edə bilmirəm. Toplum da buna razı olmaz”.

*Qeyd edək ki, Prezident seçkilərində Rəcəb Tayyib Ərdoğanın yeni qalib gəlməsinə və 5 illik müddətin təzə başlamasına baxmayaraq, artıq 2028-ci il üçün Ərdoğanın varisinin kim olacağı müzakirəsi başlayıb. Bu varislər arasında Hakan Fidan ən çox adı hallanan şəxsdir.*

**Nihat Müzəffər**

# Hərbçilərimizi şirnikləndirirlər

Onlara muzdlu olmaları üçün vədlər verilir



**”Ayrı-ayrı ölkələrdə saytlar yaradılır və Azərbaycandakı hərbçilərə müraciətlər daxil olur. O cümlədən Əfqanıstanda xidmət edən keçmiş hərbçilərə müraciətlər olur”.**

Bu fikirləri deputat Siyavuş Novruzov deyib. Onun sözlərinə görə, həmin saytlar vasitəsilə müxtəlif formada vədlər verilir: ”Əməkhaqları sadalanır ki, muzdlu şəkildə proseslərdə iştirak etsinlər. Hesab edirəm ki, bunun qarşısı ciddi şəkildə alınmalıdır. Kimlərisə şirnikləndirmə yolu ilə vaxtı ilə İŞİD-ə cəlb etmişdilər. 988 nəfər azərbaycanlı orada iştirak edib və sonradan hamısı ölkədə müxtəlif cinayətlərdə iştirak etdi. Odur ki, buna yol verməməliyik və bunu qanunla tənzimləməliyik”.

Parlament üzvü gəlirlərin artmasından da danışıb: ”Bu gün qapı-qapı gəzib pul istəyən, Beynəlxalq Valyuta Fondu və Dünya Bankının qarşısında növbə gözləyən ölkələr var. Azərbaycanda düzgün həyata keçirilən iqtisadi, kadr və struktur islahatları nəticəsində ölkənin gəlirləri artır. Bu gəlirlər xalqımızın mənafeyinə sərf olunur”.

**İsmayıl**

# "Yazmışam, demişəm, mübarizə aparmışam"

**Tural İrfan:** “Ancaq o zaman sanki suyun axarına qarşı üzürdüm, heç kəs razılaşmırdı, İranı “məsum və nurani ağsaqqal” obrazında görürdülər”

**Tarixçi-alim Zaur Əliyev İranla bağlı bir məqamı gündəmə gətirib. Alim bildirib ki, İran Azərbaycanda səfirlik açdığı ilk illərdə səfirlik binasının üzərinə ”İran İslam Respublikasının Bakıdakı səfirliyi” sözü yazılmışdı. Tarixçinin sözlərinə görə, neçə dəfə cəhd edilsə də, Tehran rejimi bunu dəyişməyib:**

”Məktub və müraciətlərimizə cavab verməyən İran səfirliyi əl altından ”biz Bakı respublikasındayıq”, ”Azərbaycanı tanımırıq, bura bizim üçün Şimali İrandır” deyə xəbər göndərirdilər. Onların adamları vasitəsilə xəbər göndərdik: ”Tehranda elə aksiya həyata keçirə bilərik ki, İran öz adını təmizə çıxara bilməz”. Yüksək səviyyədə işə qarışıldı və İran səfirliyi geri çəkildi. Alimin sözlərinə görə, son 10 ildə İran mediası arabir ”Bakı respublikası” sözünü istifadə edirdisə, bir ildir bütün sosial media və platformalarda, KİV-də bu ifadə geniş tirajlanır: ”Son iki aya isə artıq təhsil sistemlərində azərbaycanlı şagirdlərə zorla ”Azərbaycan” sözünü pozub, ”Bakı respublikası” yazmağı öyrədirlər. ”Bakı respublikası” sözünü kütləvi şəkildə təhsil, elm və media dilinə gətirirlər. Siyasilər hələ cəhd etmirlər, amma siyasi partiyalara tapşırıq verilib ki, tədricən sənədlərdə ”Azərbaycan Respublikası” sözünü ”Bakı respublikası” ilə əvəz etsinlər. İran bunu etməklə 40 milyonluq soydaşımızın beynini yumağa cəhd edir. Bu, çox cılız addımlardır. Biz siyasi əxlaq göstərib ”İran İslam Respublikası” yazırıq, ”Qacar dövləti” yazmırıq. Amma deyəsən, səhv edirik. Daha əxlaq siyasəti kənara qoyulmalıdır”.



**Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan ”Şərq”ə açıqlamasında bildirib ki, İranın Azərbaycan Respublikasına qərəzli və düşmən münasibəti məlumdur. Partiya təmsilçisinin sözlərinə görə, İran, ümumiyyətlə, dünyada özünü yabanı ölkə kimi aparır:** ”Ruslar buna ”dikiy” deyirlər. Yəni qaba, kortəbii, primitiv və dar düşüncəli siyasət yürüdürlər. Üzdə islam maskası geyən fars mollaları əslində Sasani imperiyasının bərpası üçün çalışırlar. Elə hesab edirlər ki, Türküstanın bir hissəsi, həmçinin Azərbaycan da Sasani imperiyasının tərkibinə daxil olmalıdır. O vaxt İran-İraq savaşında İraqı da ”İranın əcəm hissəsi” elan etmişdilər. İndi də Azərbaycanı, guya, ”İranın tərkibi” hesab edirlər. Başqalarını alçaltmaq istəyirlər, ancaq özləri alçalırlar. Qanmırlar ki, İran adlı dövlət olmayıb. ”İran” sözünü Hitler ”Ariyan” sözündən götürüb o bölgəyə verib. Tarix boyu o bölgəyə türklər hakim olub. İranın 80 faizində türklər yaşayır, ərazisinin önəmli hissəsi də Azərbaycan torpaqlarıdır. Farslar Azərbaycan adından o qədər qorxurlar ki, adı çəkiləndə yuxuları ərşə çəkilir. Farsların yadına Səlcuqlular, Atabəylər, Əfşarlar düşür. Yadınızdadırsa, Xamanei ”Qarabağ Azərbaycan torpağıdır” yox, ”Qarabağ islam torpağıdır” demişdi. Onlar islam deyərkən İranı nəzərdə tuturlar. Elə hesab edirlər ki, bütün sünnilər və İrana əks siyasət yürüdənlər ”kafir və düşməndir”. Ona görə də onlara qarşı istənilən üsulla mübarizə aparmaq olar. Odur ki, terror də daxil olmaqla bütün çirkin yollara əl atırlar”.

Ekspert vurğulayıb ki, İranın Azərbaycanda uzun müddətdir ayətullahları fəaliyyət göstərirdi: ”Onlar Bakıda oturub agent toplayırdılar, gizli kitablar paylayırdılar. Səfirlik və mədəniyyət mərkəzi əslində Azərbaycanda böyük bir terrorun, təxribatın təməlini qoyurdu. Təəssüf ki, bizdəki bəzi boşluqlar onların cəmiyyətə təsirinə rəvac verdi. Ölkəmizdən minlərlə gənc onların təsirinə düşdü, bu gün onlar ya agent, ya radikal dinçi, yaxud terror iştirakçısı kimi həbs olunublar. İranın Azərbaycandakı rəsmiləri hər zaman Azərbaycana qarşı təxribat işi aparıblar. Mən bunu 2000-ci ilərdə yazmışam, demişəm, mübarizə aparmışam. Ancaq o zaman sanki suyun axarına qarşı üzürdüm, heç kəs razılaşmırdı, İranı ”məsum və nurani ağsaqqal” obrazında görürdülər, ”dinin özəyi” sayırdılar. Lakin bu gün dediklərimiz təsdiqini tapır. Hər şeydən öncə İran rəsmilərinə din adamları cavab verməlidir. Sual etməlidirlər ki, nə üçün bizim dövləti tanımırsınız? Nə üçün təxribat edirsiniz, məzhəb nifaqı salaraq xalqı parçalamaq istəyirsiniz? Adekvat cavablar gecikməməlidir. İran ölkədə kök atdı, minlərlə gənci zəhərlədi. Narkotik, zəhərli ideologiya ilə beyinləri yedi”.

**İsmayıl Qocayev**

# Gələcəkdə işsiz qalmaq da var

Ona görə daha perspektivli ixtisaslara üstünlük verilməlidir

**”Bu il 1-ci ixtisas qrupu üzrə sənəd verən abituriyentlərin sayının ötən illə müqayisədə az olduğu deyilir”. Bu sözləri 4 iyunda Dövlət İmtahan Mərkəzi tərəfindən I ixtisas qrupu üzrə keçirilən qəbul imtahanını şərh edən təhsil eksperti Kamran Əsədov deyib.**



“Valideynlər də, abituriyentlər də ixtisas seçimi ilə bağlı mütəxəssis rəyi almalıdır”

Ekspert ”Şərq”ə açıqlamasında bildirib ki, ötən il 1-ci ixtisas qrupu üzrə plan yeri 16 mindən çox idi və 11 mindən çoxu dövlət sifarişli yerlər idi. Bu isə balların artmasına səbəb olmuşdu: ”Cari il isə plan yerinin artması, abituriyentlərin sayının azalması, 5 və 12 mart tarixində keçirilən buraxılış imtahanlarındakı çətinliklər nəticələrin aşağı düşəcəyini göstərir. 4 iyunda keçirilən qəbul imtahanlarında iştirak edən abituriyentlərə ilk dəfə olaraq informatika fənnindən də suallar düşüb. Bununla bağlı Dövlət İmtahan Mərkəzi 2023-cü ildə qəbul planına dəyişiklik edib ki, 1-ci ixtisas qrupunda kompüter və İT ixtisasını seçən abituriyentlər kimya yox, informatika fənni üzrə imtahan verəcəklər. Amma 1-ci ixtisas qrupu üzrə abituriyentlər artıq 7-8-ci siniflərdən kimya fənni üzrə hazırlaşmağa başlayırlar.

Məktəblərimizdə informatikanın tədrisi isə olduqca aşağıdır. Abituriyentlər hazırlıq üçün repetitorlara üz tutsalar da, həm informatika fənnini yaxşı bilən müəllimlərimizin sayı çox azdı, həm də məktəb bazası olmayan şagirdlərin bir il ərzində informatika fənnindən yüksək nəticə göstərməsi inandırıcı deyildi.

Deməli, cari ildə informatika fənninə görə kompüter elmləri, kompüter mühəndisliyi, informasiya texnologiyaları, informasiya təhlükəsizliyi ixtisaslarının keçid balları aşağı düşəcək. Digər fənlər üzrə sualların təhlili də göstərdi ki, fizika fənninin sualları üzrə də müəyyən problemlər vardı. Riyaziyyat fənni üzrə də açıq və situasiya tipli sualların cavablandırılmasında abituriyentlər çətinlik çəkiblər”.

Ekspertin sözlərinə görə, 1-ci ixtisas qrupu üzrə ayrılan plan yerləri və qəbul şansı nisbətən yüksək olduğu üçün abituriyentlərin əksəriyyəti sözügedən qrupa üstünlük verirlər. I ixtisas qrupunda ayrılan plan yerləri ildən-ilə artır. Ötən illər ərzində 1-ci ixtisas qrupu üzrə sənəd verənlərin say çoxluğu gərginliyin artmasına, keçid ballarının qalxmasına və kəsilənlərin çox olmasına səbəb olurdu”.

**K.Əsədovun fikrincə, hazırlıq prosesinə başlamadan öncə valideynlər də, abituriyentlər də ixtisas seçimi ilə bağlı mütəxəssis rəyi almalıdır:** ”Beləliklə, övladlarının təhsil alacaqları və gələcəkdə fəaliyyət göstərmələrinin daha uğurlu olacağı istiqaməti daha doğru şəkildə müəyyənləşər. Bu məsələyə ciddi yanaşmaq zəruridir. Abituriyentlər və onların valideynləri üçün əsas prioritet gələcəkdə əmək bazarında tələbatın çox olduğu ixtisaslara sahib olmaq, daha perspektivli ixtisaslarda təhsil almaq olmalıdır”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**



# Azərbaycan vətəndaşlarının oğlan sevgisi

## Selektiv aborta müraciət edən hər bir qadın birbaşa demoqrafik göstəricilərə zərbə vurmuş hesab olunur

**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ildə Azərbaycanda rəsmi olaraq 58 min abort hadisəsi qeydə alınıb.**

**Bunların çoxu mini abort, qalanı isə dərman vasitələri ilə aparılan abortlardır. 2021-ci ildə isə bu göstərici 46 877 olub. Aradakı böyük fərq onu göstərir ki, bu rəqəm hər il artmaqda davam edir. Qeyd edək ki, abort etdirənlər arasında yeniyetmələrin də sayının (2100) artdığı müşahidə olunur.**

Qeyd edək ki, abortların sayının artmasını ekspertlər birbaşa boşanmalarla və yaxud valideynlərin ikinci qız uşağını istəməməsi ilə əlaqələndirir. Halbuki cinsindən asılı olmayaraq ikinici və üçüncü uşağı saxlamaq gücündə olmayan valideynlər də az deyil. Xüsusən də sosial media paylaşımlarında maddi sıxıntı, evsizlik, təhsil kimi və xərclərin yüksək olması səbəbindən ailələr ikinci, üçüncü və daha çox uşağın olmasını istəmirlər. Bu isə ailənin şəxsi seçimi olmaqla bərabər ölkədə demoqrafik probleme səbəb olur.

Maraqlıdır, günü-gündən artmaqda olan bu problemlə bağlı hansı tədbirlər görülməlidir?

**Sosioloq Əhməd Qəşəmoğlu bildirib ki, abortların sayının artması birbaşa boşanmalarla bağlıdır. Onun sözlərinə görə, cəmiyyətdə bu məsələyə diqqət artırılmalıdır:** "Mövcud statistika mənim ürəyimi ağrıdır. 30 ildir haray çəkirəm, səsimi eşidən yoxdur. Məsələ odur ki, biz humanitar və sosial problemlərimizin həlli ilə dövrün tələb etdiyi şəkildə məşğul olmuruq. Bu işlə məşğul olan insanlar ya problemi dərindən hiss eləmirlər, ya da o onun həlli yolları barədə aydın təsəvvürləri yoxdur. Təəssüf ki, bu işləri dərindən bilən mütəxəssislərə də əhəmiyyət vermirlər. Vəziyyət günü-gündən mürəkkəbləşir. Ona görə də heç bir problemi səthi həll etmək olmaz. Problemi həll etmək üçün elmi təminat olmalıdır. Bu gün bizim məmurlarımızın elmi təminat barədə aydın təsəvvürü yoxdur".

Sosioloq abortların sayının faciəvi şəkildə artdığını vurğulayıb: "Hökumətin bu istiqamətdə tədbir görəcək adamları nə etməli olduqlarını bilmirlər. Bu məsələ ilə dövrün tələbinə uyğun, ciddi elmi mərkəzlərin mütəxəssisləri məşğul olmalıdır. Deyəndə ki boşanmalar çoxdur, deyirlər ki, nə olsun, Belçikada da çoxdur. Anlamırlar ki, orda boşanmanın fəsadı tam ayrıdır, bizdə isə tamamilə ayrı. Çoxdursa, o demək deyil ki, onlar inkişaf etmiş xalqdır. Boşanmaların çox olması həmin ölkələrin də problemidir".

**Ə.Qəşəmoğlu qeyd edib ki, abortun sayını artıran daha çox ikinci qız uşağı abortlarıdır:** "Statistikaya əsasən, abort etdirənlər daha çox gənclər deyil. 2014-cü ildən bu tərəfə boşanmalar sanki kütləvi hal alıb. Təzə ailə quran gənc artıq hiss edir ki, boşanacaq, ona görə də uşağı dünyaya gətirmək istəmir. Abortun sayını artıran səbəblərdən biri həm də ikinci qız uşağı abortudur. Bunu ya birinci uşaqdan sonra ailədə yaranan gərginlik səbəbilə boşanmağa hazırlaşan şəxslər edir, ya da oğlan uşağı istəyənlər. Əslində bu məsələnin arxasında dəhşətli problemlər dayanır. Abort edən adam kim olursa-olsun, öz uşağının ölümünə qərar verirsə, artıq onun qəlbində bir çox mənəvi dəyərlərə münasibət dəyişir. Bu, psixoloji olaraq belədir. İkinci tərəfdən əgər ailələrin çoxu boşanırsa, yarısı da evdə gərginlik yaşayır. Bu gün Azərbaycanda 80-90 faizdən çox ailədə gərginlik var. Gərginlik olan ailələrdə isə Azərbaycanın sabahı və yeni nəsil böyüyür".

**Abortların yüksək həddə çatmasının altında yatan səbəblərdən danışan tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlının "Şərq"ə açıqlamasına görə, bu problem hər zaman gündəm olub:** "Hətta bəzi inkişaf etmiş ölkələrdə dövlət abortun qadağan olunması ilə bağlı qərar verib. Bu, birbaşa ölkənin inkişafı ilə bağlı məsələdir. Bütün sahələrdə yeni davamçılar olmalıdır. Təbii ki, nəsil artımı anaların üzərinə düşür. Bir məsələni xatırlamaq istəyirəm. İkinci Dünya müharibəsindən Almaniya məğlub ölkə kimi ayrıldı, digər dövlətlər tərəfindən kapitulyasiya olundu. Buna görə də müharibədən sonra böhran yaşandı, qiymətlər qalxdı, aclıq genişləndi. Lakin o vaxt Almaniyanın verdiyi qərara görə, yalnız uşaq qidalarının qiyməti artmayacaqdı. Çünki onlar bilirdi ki, Almaniyanın gələcəyi onların əlindədir. Azərbaycana gəlincə, bizdə heç bir qərar abortların qarşısını almır. Amma proses belə davam edərsə, təbii ki, dövlət kəskin qərar verməyə məcbur qalacaq".

**Bu halların orta məktəb şagirdləri arasında həm tibbi, həm də mənəvi cəhətdən xoşagəlməz fəsadlara gətirib çıxaracağını deyən Ş.Namazlı hesab edir ki, problemin əmələ gəlmə səbəbi ailədən başlayır:** "Düzgün istiqamət olmalı, təbliğat doğru şəkildə aparılmalıdır. Daha sonra isə burada əsas rolu məktəb oynayır. Onlara tədris olunan dərslərdən bu haqda məlumatlanmalıdırlar. Üçüncü önəmli amil isə mühitdir. Çünki uşaq da sosial varlıqdır və sosial həyat bu məsələdə rol oynayır. Bu üç faktor - valideyn, məktəb, cəmiyyət məktəblilər üçün çox böyük önəm daşıyır.

Valideyn düşünməlidir ki, abortlar nəticəsində bugünkü məktəbli gələcək analıq hüququnu itirə bilər. Təbabət buna zəmanət vermir. Bu baxımdan bütün bunlar gələcək nəslin intellektual inkişafına zərər vuracaq. Ailəli qadınlar isə iqtisadi durumu bəhanə gətirir. Deyirlər ki, iki-üç uşağım var, imkanım yoxdur və.s. Həmçinin bəzi qadınlar qeyri-qanuni yolla dünyaya uşaq gətirmək istəmədiyindən bu yola əl atır. Ən xoşagəlməz hal isə cinsiyyətə görə edilən abortlardır. Ailə, Qadın, Uşaq Komitəsinin vəzifəsi bu mövzularda təbliğat aparmaqdır. Bölgələrdə bu haqda yeniyetmələr arasında seminarlar keçirilməlidir. Eyni zamanda valideynlər də maarifləndirilməlidir. Qeyd etmək lazımdır ki, televiziyaların da üzərinə böyük iş düşür. İntellektual verilişlərin sayı azlıq təşkil edir. Müzakirələr zamanı bu mövzuya da toxunulmalıdır. Çünki televizor hər kəsin ailəsində var. Günümüzdə bu, həqiqətən də ciddi bir bəladır. Valideynlər çox gec ayılır. Sonra da yeganə yol kimi abort məsələsini seçirlər".

> "Biz ailələrə başa sala bilmirik ki, onların qız uşaqlarına qarşı soyqırımı, övlad ayrı-seçkiliyi bir ailənin daxili işi deyil, bunun acı nəticəsini bütünlükdə cəmiyyət çəkəcək"

**Sosioloq-jurnalist Lalə Mehralı da "Şərq"ə açıqlamasında böyük təəssüf hissi ilə deyib ki, biz insanlarımıza abortların genefondumuza nə qədər ziyan vurduğunu izah edə bilmirik:** "Biz illər əvvəl deyəndə ki, selektiv abortların sayı, vaxt olacaq, üzümüzə özünün mənfi nəticələri ilə qayıdacaq. Cəmiyyət bizi ciddi qəbul etmədi.

Azərbaycan vətəndaşlarının oğlan sevgisi, qızların hər zaman bir əşya kimi qəbul edildiyini bilirik. Biz ailələrə başa sala bilmirik ki, onların qız uşaqlarına qarşı soyqırımı, övlad ayrı-seçkiliyi bir ailənin daxili işi deyil, bunun acı nəticəsini bütünlükdə cəmiyyət çəkəcək. Selektiv aborta müraciət edən hər bir qadın birbaşa demoqrafik göstəricilərə zərbə vurmuş hesab olunur. Cinsi tarazlığın pozulmasına bütün sahələrdə mənfi təsirini göstərir. Biz məktəblərdə, bağçalarda, universitetlərdə də artıq bu nisbət pozulmasını hiss edirik. İstənilən bir orta məktəbə gedin, istənilən bir sinfin qapısını açın və orda oturan uşaqların cinsinə baxın. Onda görəcəksiniz ki, bizim valideynlər qız övladına qarşı necə qəddardır".

Hər zaman aborta görə pul cəzasının çoxaldılmasının, lazımi vəziyyətlərdə hətta həbs cəzası ilə əvəz edilməsinin tərəfdarı olduğunu vurğulayan L.Mehralı deyib ki, araşdırma üçün getdiyim bir neçə dövlət xəstəxanasında qeydiyyata salınmadan, xəstəlik tarixçəsi açılmadan neçə qadının abort stoluna çıxarıldığını görüb: "Qeydə alınan abort statistikası insanın tükünü ürpərdir, indi təsəvvür edin, qeydə alınmadan nə qədər körpə ana bətnində qətl edilir, selektiv aborta məruz qoyulur. Üstəlik, bunların hamısı xəstəxana şəraitində edilmir, işinin ustası olduğunu hesab edən bəzi həkimlər elə öz evinin bir otağında xəstə qəbul edir, abort həyata keçirir. Adi tibb bacısı belə abort edib, pul qazanır. Xəstəxana şəraiti olmayan yerdə tibbi müdaxilə etmək təhlükəlidir, bunun nəticəsi ölümlə nəticələnənə qədər gedə bilər".

Sosioloq deyib ki, cinsi tarazlığın pozulması 2000-ci illərin əvvəllərində doğulan gənclərə evlilik zamanı da problem yaradacaq. "Bir var evlilik çağında olan oğlanın ətrafında 15-20 qız olsun, bir də var cəmi tanıdığı 5-6 qız arasında seçim etmək məcburiyyətində qalsın. Ölkədə qız tapa bilməyən oğlan əcnəbi nikahlara üstünlük verəcək ki, bu da artıq milli genefondumuzun dəyişməsi deməkdir".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Azərbaycan mühacirət ədəbiyyatı: başlanğıcdan günümüzədək"

## Vaqif Sultanlının yeni kitabı nəşr olunub

**Bakı Dövlət Universitetinin professoru, yazıçı-ədəbiyyatşünas Vaqif Sultanlının yenicə yayımlanmış "Azərbaycan mühacirət ədəbiyyatı: başlanğıcdan günümüzədək" kitabı ən qədim dövrlərdən çağdaş dönəmədək mühacirətin keçib gəldiyi yolun, zəngin ədəbi-bədii və nəzəri-kulturoloji irsin araşdırılması baxımından önəm daşıyır.**




Azərbaycan Dövlət Nəşriyyatında yayımlanan bu kitab müəllifin mühacirət ədəbiyyatı ilə bağlı ilk araşdırması deyildir. Belə ki, onun "Ağır yolun yolçusu" (1996), "Azərbaycan mühacirət ədəbiyyatı" (1998), "Ömrün nicat sahili" (2004) kitabları və çoxsaylı məqalələri bu mövzuda qələmə alınıb. Həmçinin araşdırmaçının İstanbulda yayımlanmış "Azərbaycan mühacirət ədəbiyyatı" (2007), "Ruhun ağrıları" (2010) kitabları da köçmən ədəbiyyatı ilə bağlıdır.

Vaqif Sultanlının yeni kitabını əvvəlki araşdırmalarından fərqləndirən əsas cəhət burada mühacirət ədəbiyyatının tarixinə bütöv və sistemli şəkildə yanaşılmasıdır. Müəllif ilk tədqiqatlarından fərqli olaraq burada VII əsrin sonları VIII əsrin əvvəllərində Mədinəyə köç etmiş məvali şairlərdən başlayaraq Sovetlər Birliyinin dağılmasından sonra mühacirətin yayılma arealına qədər geniş zaman kəsimini əhatə etmiş, bu dönəmdə yaranmış ədəbi-kulturoloji irsin ümumi mənzərəsini canlandırıb.

Monoqrafiyada Azərbaycanın Quzeyinin çar Rusiyası tərəfindən işğalı ilə başlayan dönəmin miqrasiya axınları fonunda ədəbi-mədəni sferada yaşanan proseslərə yer verilib. Həmçinin rus-sovet müstəmləkəçiliyi dövründə mühacirət ədəbiyyatının keçdiyi mərhələlər işıqlandırılıb, ayrı-ayrı şəxsiyyətlərin ədəbi portreti yaradılıb. Burada Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cəfəroğlu, Mirzə Bala Məmmədzadə, Səlim Rəfiq Rəfioğlu, Əbdülvahab Yurdsevər, Almas İldırım, İren Məlikhoff və başqaları haqqındakı portret yazıları diqqəti çəkməkdədir.

Monoqrafiyada Qurban Səidin "Əli və Nino", "Altunsaç" romanları ilə bağlı ədəbiyyatşünaslıqda uzun illərdən bəri davam edən mübahisələrə də toxunulub, həmçinin həmin əsərlər təhlil olunub.

Araşdırıcı İkinci Dünya savaşı ilə bağlı qürbətə üz tutmuş Azərbaycan mühacirətinin ədəbi-bədii, nəzəri-kulturoloji və publisistik irsini də geniş şəkildə araşdırıb, legion ədəbiyyatından ayrıca bəhs edib.

Müəllif kitabın ön sözündə tədqiqatla bağlı qənaətlərini belə ümumiləşdirərək yazır: "Bəzən belə bir fikir səslənir ki, mühacirət heç bir zaman sözün həqiqi mənasında böyük ədəbiyyat yaratmayıb, dünya ədəbi fikrinə qeyri-adi sənət örnəkləri bəxş etməyib. Bu məntiqin kifayət qədər ciddi elmi-faktoloji arqumentlərə söykənmədiyini qeyd etməklə yanaşı, belə bir məqama diqqət yetirməyə ehtiyac vardır ki, tarixin müəyyən, bəlli bir zaman kəsiyində ədəbiyyatı xalqın, vətənin taleyi ilə bağlı məsələlər düşündürdüyündən ədəbi-bədii kriteriyaların bir növ "unudularaq" arxa plana keçdiyi məqamlar da olur. Buna görə də mühacirət ədəbiyyatı dəyərləndirilərkən onu yaradanların yalnız ədəbi istedadı deyil, sosial-əxlaqi mövqeyi də nəzərdən qaçırılmamalıdır".

Tədqiqatçının qənaətincə, qədim tarixə malik olan mühacirət ədəbi-bədii və nəzəri-kulturoloji irsi bütöv Azərbaycan mədəniyyətinin ayrılmaz parçasıdır. "Bir zaman gələcək ki, ədəbi şəxsiyyətlərin bioqrafiyası, yaxud yaradıcılıq yolu dəyərləndirilərkən, eski çağlarda olduğu kimi, onların vətəndə və ya mühacirətdə yaşamasının fərqləndirilməsinə lüzum görülməyəcək. Lakin Azərbaycan mühacirət irsinin uzun illər araşdırmalardan kənarda qalması, özəlliklə çarlıq və sovet siyasi rejimi dönəmlərində yaranan ədəbiyyatın öyrənilməsinə ciddi yasaqlar qoyulması onun ayrıca araşdırılmasını şərtləndirir".

Kitabda indiyədək mühacirət ədəbiyyatı ilə bağlı bir çox mübahisələrə aydınlıq gətirilib, gələcəkdə bu sahədə aparılacaq araşdırmalar üçün elmi-metodoloji istiqamətin müəyyənləşdirilməsinə çalışılıb.

Vaqif Sultanlının oxuculara təqdim olunan monoqrafiyasının mühüm özəlliklərindən biri müxtəlif dövrlərdə Azərbaycanın Güneyindən ayrı-ayrı ölkələrə mühacirət etmiş ədəbi şəxsiyyətlərin yaradıcılıq irsinin də araşdırılmasıdır. Eyni zamanda araşdırmada Sovetlər Birliyinin dağılması və Azərbaycanın yenidən bağımsızlıq qazanmasından sonrakı dönəmdə yaranmış, indiyədək yetərincə öyrənilməmiş mühacirət ədəbiyyatı da sistemli şəkildə təhlilə çəkilib.

**Aygün Tahir**

# Göy qurşağı, ya riskli rənglər?

## İndiki dövrün uşaqları çərpələng uçurmağa maraq göstərmirlər

**"Elm və Təhsil Nazirliyi məlum paylaşımı silibsə, demək, artıq fərqli təəssüratlar yaranıb".**



*Bunu "Şərq"ə psixoloq və cinsi terapevt Əfsanə Rüstəmova Elm və Təhsil Nazirliyinin 1 iyun Uşaqlar Günündə paylaşdığı fotonun tənqid olunmasından danışarkən deyib. Onun sözlərinə görə, indiki dövrün uşaqları çərpələng uçurmağa maraq göstərmirlər:* "Uşaqların əyləncə anlayışına daxil olmayan bir vasitəni atributa çevirmək və "riskli" olacaq rənglərin seçilməsinin cəmiyyətdə birmənalı qarşılanmayacağı anlaşılandır. Hansısa bir foto təqdim olunanda valideynlərin də yanaşmaları nəzərə alınmalı idi. Çünki uşaqların sosial şəbəkə məhdudiyyəti var, paylaşım daha çox valideynlərin qarşısına çıxır. Hər kəsin də intellekt, təhsil səviyyəsi, dünyagörüşü fərqlidir. Bu nöqteyi-nəzərdən publikaya çıxardığımız paylaşımın müxtəlif aspektlərdən qarşılanacağı təbiidir".

**Psixoloq diqqətə çatdırıb ki, uşaqlar yeni olan məlumatı araşdırırlar:** "Bir informasiya araşdırılanda ortaya çıxan fərqli məna ilə qarşılaşan uşaqların hansı hisslər keçirəcəyini də nəzərə almaq lazımdır. Sözügedən qrup kifayət qədər həssas yaş kateqoriyasına daxildir. Artıq yeniyetməlik dövründən etibarən uşaqlar müxtəlif e-mail adresləri ilə gizli şəkildə sosial şəbəkəyə çıxış imkanı əldə edir. Həmin yeniyetmələr özünükəşf dönəmində cinsi arzularından yeni-yeni xəbərdar olur. Nəticədə bu cür müzakirə olunan bir mövzunu görüb, internetdə axtarış etmələri onların yeni bir məlumat axını ilə qarşılaşacağı anlamına gəlir. Bu yeni məlumat axını onların bu günə qədər öyrəndikləri, ideologiyaları, yetişdikləri coğrafiya, inandıqları dinə ya da mental düşüncələrinə ziddir. Artıq məsələni araşdırmaq üçün daha fərqli mənbələrə müraciət edəcəklər. Qarşılaşacaqları məlumat onların psixoloji dayanıqlılıq həcmindən daha çoxdursa, əlbəttə, yeniyetmələr, gənclər və uşaqlar təsir altına düşə bilərlər".

*Qeyd edək ki, Elm və Təhsil Nazirliyi feysbuk sosial şəbəkəsində 1 İyun Uşaqlar Günü münasibətilə paylaşım edib. Bəzi insanlar fotoda əks olunan çərpələngin rəngini tənqid ediblər. Rənglərin göy qurşağı yox, LGBT bayrağını təzahür etdirdiyini bildiriblər.*

**Sücayət Mehti**

# Ətrafa zərər vurmaq normal insana xas hərəkətlər deyil

## Bu hərəkətlərdə anormallıq aşkar görünür və əgər dəqiq araşdırılsa, o adamın psixoloji problemləri olduğu təsdiqlənəcək

**Bakının Nərimanov rayonunda gecə saatlarında güclü səs effekti yaradan pirotexniki vasitələrdən istifadə edən və ətrafda yaşayan sakinlərin ciddi narazılığına səbəb olan şəxs həbs edilib.**

DİN Mətbuat xidmətinin məlumatında bildirilir ki, naməlum şəxs gecə saat 03 radələrində Nərimanov rayonunda binalardan birinin həyətində güclü səs effekti yaradan pirotexniki vasitələrdən istifadə edərək ətrafda yaşayan sakinlərin haqlı narazılığına və çoxsaylı şikayətlərinə səbəb olub. Həmin şəxsin etdiyi əməl inzibati ərazidə quraşdırılan videomüşahidə kameraları vasitəsilə də qeydə alınıb. Nərimanov Rayon Polis İdarəsinin 16-cı Polis Bölməsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlər nəticəsində gecə saatlarında pirotexniki vasitələrdən istifadə edən paytaxt sakini Həsən Hüseynli saxlanılıb. Onun barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib və toplanmış material baxılması üçün Nərimanov Rayon Məhkəməsinə göndərilib. Məhkəmənin qərarına əsasən, o, 5 gün müddətinə inzibati qaydada həbs edilib.



İnsanları anormal davranışlara, qeyri-adi hərəkətlərə sövq edən hansı səbəbdir? Bir var, müsbət, cəmiyyətə yararlı hər hansı addımla diqqət çəkəsən, bir də var ətrafdakıların narahatlığına, ictimai qınağa səbəb olan davranış sərgiləyəsən. Bu, bir insanın özünü hansısa formada təsdiqə can atması, lakin yanlış üsul seçməsi ola bilərmi?

**Məlum hadisə ilə bağlı "Şərq"ə danışan psixoloq Fərqanə Mehmanqızı qeyd etdi ki, insanın özünü təsdiq etmək istəyi normal haldır. Lakin bu, özünütəsdiqin hansı formada edilməsinə bağlıdır:**

- Səbəblər müxtəlif ola bilər. Özünü təsdiqə can atan insanlar bəzən doğru vasitələrə əl atmır, doğru vasitələri tapmır və ya buna onların düşüncəsi, intellektual səviyyəsi yetmir. Özünü təsdiqə can atanlar bəzən xroniki depressiyadan əziyyət çəkir. İnsanın özünü təsdiqə can atması nə qədər normaldırsa, bunun cəmiyyətə ziyan vuracaq tərzdə edilməsi, bir o qədər zərərlidir. Konkret haqqında danışılan hadisədə mən özünü təsdiq kimi atmaq kimi bir həvəs görmürəm. Bu, özünü təsdiq deyil. Bu, ruhən özündə olmayan bir insanın davranışıdır və o şəxsin psixoloji problemləri olduğunu göstərir. Psixi durumu normal olan insan belə hərəkətlər etmir. Bu hərəkətlərdə anormallıq aşkar görünür və əgər dəqiq araşdırılsa, o adamın psixoloji problemləri olduğu təsdiqlənəcək. Polis bunu araşdırmalıdır ki, adam nədən əziyyət çəkir. Ya bu adam içki düşkünüdür, ya da psixotrop maddənin təsiri altında olub. Çünki normal insana xas hərəkətlər deyil bunlar.

**Məlahət Rzayeva**

# Qələm adamını intihardan yayındırdılar

## "Jurnalistin ailəsi ilə problemi varsa, buna ictimai rəng verməkqətiyyən doğru deyil"

**ATV-də yayımlanan "Futbolumuz" verilişinin aparıcısı, idman jurnalisti Ceyhun Rzayev intihar edəcəyini elan edib. İdman jurnalisti ailə münaqişəsi səbəbindən həyatına son qoyacağını deyib:**

"Bu gün saat 11:00-da intihar edəcəyəm. İntihar anonsu verən hər bir şəxs, əslində xilas olmağı ümid edir. Amma mənim məqsədim başqadır. Televiziya və internet kanalları gəlib məni çəksinlər. İstəyirəm bütün Azərbaycan bunu görsün. Bəlkə bundan sonra məhkəmə hakimləri analoji qərar verərkən məni xatırlayıb fikirlərindən dönərlər. Bəlkə bundan sonra Ədliyyə Nazirliyinin icra məmurları belə həssas qərarları icra etmək üçün canfəşanlıq göstərməzlər. Mən bədbəxt oldum, başqalarını bədbəxt etməsinlər".



C.Rzayev ünvan olaraq Nəsimi rayonu, Kaveroçkin küçəsi 8 ünvanındakı binanı göstərib. Səhər saatlarında hadisə yerinə polis əməkdaşları və xilasedicilər gedib.

Daxili İşlər Nazirliyinin (DİN) şöbə rəisi Elşad Hacıyev telejurnalist Ceyhun Rzayevin intihar anonsu ilə bağlı açıqlama verib. "Telejurnalist Ceyhun Rzayevin çağırışı ilə əlaqədar DİN tərəfindən təcili müdaxilə edilib. O, fikrindən daşındırılaraq polis orqanına dəvət edilib. Onu narahat edən hallar (ailə məsələsidir) araşdırılır. Zəruri olan tədbirlərin görülməsi təmin ediləcəkdir", - DİN rəsmisi bildirib.

Qeyd edək ki, C.Rzayevlə valideynləri arasında yaşadıqları ev üstündə məhkəmə çəkişməleri yaranıb. Nəticədə məhkəmə jurnalistin valideynlərinin xeyrinə qərar çıxarıb. Məlumata görə, bu gün icra məmurları jurnalistin yaşadığı ünvana gələrək, onu və ailəsini evdən çıxaracaqlar. C.Rzayevin məhz buna etiraz əlaməti olaraq intihar anonsu verdiyi bildirilir.

Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) idman telejurnalisti Ceyhun Rzayevin qarşılaşdığı problemin ictimailəşməsindən sonra bu məsələni daim diqqətdə saxlayıb: "Acı təəssüf hissi ilə bildiririk ki, böyük potensiala malik idman mediası ailəmizin bir üzvünün belə çətinliklə üzləşməsi bizdə ciddi narahatlıq doğurub. Ceyhun Rzayevin dünən səhər saatlarında öz şəxsi sosial media hesabında intihar edəcəyi ilə bağlı paylaşım etməsi onun son həddə çatdığını göstərir. Ümid edirik ki, Azərbaycan Respublikasının müvafiq dövlət qurumları bu məsələni dərhal və təxirəsalınmaz formada ciddi nəzarətə götürəcək, dövlətimizin sadiq qaldığı humanizm prinsiplərinə uyğun olaraq qanunvericilik çərçivəsində bu problemin birdəfəlik həllinə nail olacaqlar".

Mətbuat Şurasının sədri Rəşad Məcid isə hesab edir ki, telejurnalist Ceyhun Rzayevin təngə gəlməsinin səbəbi açıqlananda qınanılacaq ilk hədəf valideynləri və yaxınları olacaq. Bu barədə fikirlərini sosial media hesabında paylaşan MŞ sədrinin fikrincə, bu cür metodlarla ailədaxili problemin həllinə çalışmaq yolverilməz və təəssüfedicidir: "Polisin çevik reaksiyasına görə təşəkkürümüzü bildirir, Ceyhuna isə təmkin və səbr arzulayırıq".

"Azvision.az" saytının baş redaktoru Vüsal Məmmədovun fikrincə, jurnalistin ailəsi (valideynləri) ilə problemi varsa, buna ictimai rəng vermək qətiyyən doğru deyil: "Əgər jurnalist peşə fəaliyyətini həyata keçirərkən hansısa problemlə üzləşsəydi (məsələn, yazdığı məqaləyə görə təzyiq göstərilsəydi), onda ictimai müzakirə açmaq olardı. Amma ata-anası ilə yola getməməklə jurnalist peşəsinin arasında heç bir bağlılıq yoxdur. Fəhlə də, sürücü də, satıcı da, ofisiant da evdə belə münaqişə ilə üzləşə bilər. Sırf jurnalisti ayırıb, xüsusi zümrə kimi təqdim etmək praktikasına son qoymaq lazımdır. Jurnalist olmaq heç kimi başqalarından artıq etmir. Şəxsi problem şəxsi müstəvidə də həll olunmalıdır".

Jurnalist Rufik İsmayılov da feysbuk hesabında C.Rzayevin intihar "anonsu"na münasibət bildirib: "Mülkiyyət məsələsi, mülkiyyət hüququ ilə bağlı bir məqamı vurğulamaq istərdim. Hər bir ailədə övladlar eyni statusa sahibdirlər. Fərqi yoxdur, qız, yaxud oğul. Mülkün sahibi valideyndirsə, o öz mülkünü öz istəyinə uyğun olaraq qızına da bağışlaya bilər, oğluna da. Zərurət yaransa, yumşaq və ya sərt formada tələb də edə bilər ki, ay oğlum, ay qızım, böyüdüb təhsil verdim, indi özün işlə, həyatda yolunu tut, yaşayışını qur, həyatını yaşa və sair. Bizdə bəzən elə təəssürat yaranır ki, əgər valideynin varsa, mütləq səni mülklə təmin etməlidir. Bu, belə olmaya da bilər. Yaxud elə hesab olunur ki, ailədə bir oğul, bir qız övladı varsa, ata mülkü oğlundur. Yaxud valideynin bir neçə oğul-qızı varsa, mülk kiçik oğlundur. Mənəvi baxımdan, centlmen razılaşması, mentali dəyərlər baxımından kimsə bunu bu cür qəbul edə bilər. Amma hüquq, qanun deyir ki, cinsindən asılı olmayaraq hər bir övlad eyni hüquqa və statusa sahibdirlər. O nöqteyi-nəzərdən belə məsələlərdə valideyn könüllü razılığı yoxdursa, mülkünü oğluna deyil, qızına bağışlayırsa, yaxud heç birinə bağışlamırsa, ona qarşı çıxmaq, onları nədəsə ittiham etmək mənasızdır. Mülkün qanuni sahibi kimdirsə, məhkəmə məhz onu dəstəkləməli və mülkiyyət hüququnu müdafiə etməlidir".

**Şəymən**

# Ağcaqanad dərmanlardan qətiyyən istifadə etməyin

## Bu dərmanların mərkəzi sinir sisteminə təsiri çox pisdir

**Bəzi heyvanlar insan üçün təhlükəlidir və ölümə səbəb olur. Lent.az-ın məlumatına görə, ağcaqanadlar müxtəlif xəstəliklər yaradaraq hər il 750 min nəfərin ölümünə səbəb olur. Xüsusilə də Afrikada. İlanlar isə hər il 138 min insanı öldürür. Quduzlaşmış itlər hər il 59 min adamı həyatdan məhrum edir.**



Birələr hər il 10 min insanın ölümünə səbəb olur. Hər il min nəfəri isə timsahlar məhv edir.

Mütəxəssislərin fikrincə, ağcaqanad sancması malyariya, laym və bu kimi xəstəliklərin yaranmasına səbəb ola bilər. Bunlarla yanaşı, "inset bit" adlı qaşınmalı allergik xəstəlik meydana çıxa bilər ki, bu da bütün bədənə yayılaraq, qana mikrob salır. Ağcaqanad sancması yuxu rejimini pozmaqla insanın əsəb sisteminə də təsir edir.

Qeyd edək ki, ağcaqanadların yalnız dişiləri qan sorur. İki hissədən ibarət olan xortumlarını dəriyə soxaraq qanı sormağa başlayırlar. Bu vəziyyətdə canlının narahat olmaması üçün ağcaqanad tüpürcəyi ilə birlikdə narkotik bir maddə ifraz edir. Və həmin maddə sancılan yeri keyidir. Ağcaqanadlar tüpürcəkləri vasitəsilə xəstəlik də bulaşdıra bilərlər. Ağcaqanadların ən çox yaydığı xəstəlik qızdırma xəstəliyidir. Ağcaqanad sancmasından sonra həmin yerin qaşınması isə ağcaqanadın tüpürcəyinin insanın dərisində reaksiya verməsi ilə bağlıdır. Yəni ağcaqanad qanı torbasına doldurduqca, buraxdığı tüpürcəyi də geri sorur, amma onu öldürəndə və ya uçuran zaman tüpürcək dəridə qalır, allergiyaya səbəb olur.

**Pediatr Aytən İsmayılzadə isə "Şərq"ə açıqlamasında deyib ki, ağcaqanad dişləyəndə çox həssas orqanizmlərdə aşırı reaksiyalar görə bilirik:** "Dişlədiyi yer bərkiyir, qızarır, şişir, hətta infeksiya yaradır. Bu zaman yerli olaraq hidrokortizon məlhəm və fenistil gel istifadə edilməlidir.

Ağcaqanad dişləməsi əsasən uşaqlarda ciddi fəsadlar yaradır: "Uşaqların dəriləri həssasdır. Onlar ağcaqanad dişləyən yeri qaşıyırlar, bu da infeksiyaya, müxtəlif mikrobların yaranmasına səbəb olur. Nəticədə, ağcaqanad dişləyən yerdə qızartılar, şiş, irin əmələ gəlir. Ona görə də ağcaqanadlar uşağa yaxın gəlməsin deyə, lavanda və kamfora yağlarından uşağın yastığına, paltarına vurmaq olar. Uşaqları ağcaqanad dişləməsin deyə "toka taxılan" və ya tüstülənən dərmanlardan qətiyyən istifadə etməyin. Onlar uşaq orqanizmi və hamilələr üçün zərərlidir. Nəinki uşaqlar, eləcə də böyüklər üçün də ziyanlıdır. Bu dərmanların mərkəzi sinir sisteminə təsiri çox pisdir. Bütün həşəratları öldürə biləcək kimyəvi maddələr toplusudur ki, bu da insan orqanizminə ziyandır. Ən birinci problem isə allergik problemlər yaratmasıdır. Böyüklərdə ürək xəstəlikləri, qan təzyiqi xəstələri üçün ziyanlıdır".

Ağcaqanad dişləməsinin səbəb olduğu xəstəliklərə gəldikdə isə həkim malyariya, dang qızdırması, sarı qızdırma və yapon ensefaliti kimi xəstəliklərin adını çəkib. Bəzən hepatitlər və QİÇS-in də ağcaqanadlar vasitəsilə yoluxmasını iddia edirlər. Lakin bu viruslar ağız suyu, tər, göz yaşı yox, qan vasitəsilə keçir: "Düzdü, ağcaqanadın göz yaşı və təri olmur, amma ağız suyu var. Və o, ikinci dəfə dişləyəndə birinci ağız suyu buraxır. Ağcaqanadın xortumunda belə bir xüsusiyyət də var ki, əvvəl sorduğu qan klapanla bağlanır və ikinci dəfə geri qayıtmır. Yəni klapan birtərəfli açıldığına görə ağcaqanad udduğunu qusa bilmir.

Yuxarıda saydığımız infeksiyalar isə ağız suyunda da yaşadığı üçün ağcaqanadla ötürülə bilir. Tövsiyə edirəm ki, kimin yolu Afrika ölkələrinə düşsə, o zaman sarı qızdırmaya görə peyvənd olunmaları məsləhətdir".

**Şəymən**



# Nəriman Həsənzadə əməliyyat olunub

## "Gözüm 2 il yarım idi ki, tor kimi görürdü"

**Xalq şairi Nəriman Həsənzadə əməliyyat olunub. Bu barədə şairin özü "Şərq"ə açıqlama verib. O bildirib ki, 1 həftə əvvəl gözündəki problem aradan qaldırılıb:** "Hazırda Bakıdayam. Gözüm 2 il yarım idi ki, tor kimi görürdü. Görmə qabiliyyətim zəifləmişdi. Sonra yaxşı bir həkimlə qarşılaşdım. Əməliyyatı elə icra etdi ki, heç ruhum da incimədi".

O, səhhətində yaranan problemə baxmayaraq, fəaliyyətini davam etdirdiyini söyləyib: ""Ədəbiyyat" qəzetində səhifə-səhifə yazılar, şeirlər, poemalarım dərc olunur".

**Sücayət**

# Effekt 99 faiz civarında olacaq

## Uşaqların pis vərdişlərinə görə valideynlər cərimələnsin



**"Uşaqların siqaret çəkməsinə görə valideynlərin cərimələnməsini təklif edirəm. Həm də mən təkcə siqaretə görə yox, uşaqların törətdikləri bütün cinayətlərə görə valideynlərin həbs edilməsini, vurduqları bütün zərərin 2 qatının valideynlərə ödətdirilməsini təklif edirəm".**

*Bu sözləri Sağlam Cəmiyyət Hərəkatının sədri, sosioloq Elçin Bayramlı deyib. Onun sözlərinə görə, yeniyetmə maşınla qəza törədirsə, valideyn dərhal və qeyd-şərtsiz həbs edilməli, vurulan ziyan valideynə ödətdirilməli, maşın müsadirə edilərək satılmalı və pulu uşaq evlərinə köçürülməlidir:* "Bu pullarla internat uşaqları ekskursiyalara aparılmalıdır. Sizi inandırıram ki, bu tədbirlər valideynləri uşaqlarına tərbiyə verməyə məcbur edəcək, burada effekt 99 faiz civarında olacaq və alternativ heç bir yol yoxdur".

**Şəymən**

### Elan

Quliyev Rahib Məmmədtağı oğluna məxsus KAMAZ 5511 yük maşınına aid 68 BB 342 dövlət nömrə nişanı itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1468



## Astarada eşşək kənd sakininin qulağını qoparıb

Cərrahi əməliyyatla yaralının qulağı yerinə tikilib

**Astara rayonunda ulaq (eşşək) kənd sakinini dişləyərək xəsarət yetirib.**

"Report"un Cənub bürosunun məlumatına görə, hadisə rayonun Pəlikeş kəndində baş verib.

Belə ki, kənd sakini 1982-ci il təvəllüdlü Vəliyulla Talıb oğlu Əliabbasova qonşusunun ulağı hücum edib.

Yerə yıxılan kişinin qoluna xəsarət yetirən ulaq V.Əliabbasovun qulağını dişləyib.

Xəsarət alan kənd sakini Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb.

Cərrahi əməliyyatla yaralının qulağı yerinə tikilib.

Yaralıya digər tibbi yardımlar göstərilib, tetanus əleyhinə zərdab və quduzluğa qarşı peyvənd vurulub.

## Çin alimləri xərçəngin dərmanını tapmaq üzrədir



**Çin alimləri xərçəng əleyhinə təbii dərman olan vinblastini kəşf ediblər.**

"Medicina" xəbər verir ki, onlar insan orqanizminin NK hüceyrələrinin xərçəng hüceyrələrini məhv edə biləcəyini sübut edib. Bu hüceyrələr çox vaxt "xərçəng öldürücüləri" adlanır.

Çində laboratoriya üsulları ilə oxşar NK hüceyrələrinin yaradıla biləcəyini sübut edən araşdırma da aparılıb.

Əgər müalicədə çox sayda bu hüceyrələrdən istifadə olunarsa, o zaman orqanizmin onkologiyaya qalib gələ bilməsi mümkündür. Bunun üçün təbii Catharanthus roseus bitkisindən istifadə etmək olar, çünki o, şişlərin böyüməsini dayandıra bilən və metastazların inkişafının qarşısını ala bilər. Alimlər bu bitki tərkibli dərmanın sınaqlarını aparır.

## Əfqanıstanda üz qırxmaq qadağan edildi



**Əfqanıstanda Taliban rejimi qadağalara yenisini əlavə edib.**

Bakupost.az xəbər verir ki, rejim kişilərə təraş olmağı qadağan edib.

Bərbərlər və saqqal uzatmaq istəməyən şəxslər bu qərara reaksiya bildirib. "Herat" Elm və Fəzilət Şöbəsinin rəhbəri Əbdül Rəhman qərarla bağlı açıqlama verib:

"20 illik cəhalətdən sonra gənc nəsil təbii olaraq bizim əmrlərimizdən üzüləcək. Amma başa düşmək lazımdır ki, zahiri görünüşümüz şəriətə uyğun olmalıdır. Biz müsəlman cəmiyyətindəyik və müsəlman olduğumuzu söyləmək üçün müsəlman kimi görünməliyik".

## Taxt-taca daha bir varis

Kraliça Yelizavetanın nəvəsi dünyaya gəlib



**Bu günlərdə Böyük Britaniya kral ailəsində artım var. Mərhum kraliça II Yelizavetanın kiçik oğlu şahzadə Endryu kiçik qızı şahzadə Yevgeniya ikinci övladını dünyaya gətirib.**

Şahzadə ikinci oğlunun dünyaya gəlməsini sosial media vasitəsilə bəyan edib. Bu barədə "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir. Məlumdur ki, şahzadə Endryu haqqındakı zorakılıq və təcavüz olaylarından sonra həyat yoldaşı Sara Ferqusondan boşanmışdı. Və ana kraliçanın da "gözündən düşmüşdü". Şahzadənin kiçik qızı Yevgeniya iş insanı Cak Brooksbank ilə evlidir. Şahzadənin ikinci dəfə ana olması bir müddət gizli saxlandıqdan sonra açıqlanıb. Şahzadə yeni doğulmuş övladına Ernest Corc Ronnie Brooksbank adını verib. Bu körpə də özündən 2 yaş böyük qardaşı kimi Londonun Portland xəstəxanasında dünyaya gəlib. Şahzadə yeni doğulan körpəsinin də, 2 yaşlı oğlunun da fotolarını instaqram hesabında paylaşıb. Şahzadə fotoya "Augie artıq indidən özünü böyük qardaş kimi aparır" sözlərini yazıb. Yeni doğulan körpə kral taxt-tacının 13-cü varisidir. Bekinqhem Sarayı da şahzadənin sağlam bir şəkildə övlad dünyaya gətirdiyini sevinclə xəbər verib. Ernest kraliça Yelizavetanın vəfatından sonra dünyaya gələn ilk nəvədir.

**Məlahət**

## "Sevgili deyilik"

Aktrisa ilk dəfə şayiələrə münasibət bildirib



**Xəbər verdiyimiz kimi, türkiyəli aktrisa Gözdə Kansuyla müğənni Emre Altuğun eşq yaşadığı iddia edilib.**

Axşam.az-ın məlumatına görə, aktrisa ilk dəfə bununla bağlı şayiələrə münasibət bildirib. O, xəbərləri təkzib edib:

"Sevgili deyilik. Emre mənim çox sevdiyim dostumdur. Çıxan xəbərlərdə bizi ər-arvad kimi yaraşdırırlar deyə, gülüb əyləndik. Onunla dostluq etmək möhtəşəmdir. Həyatımda heç kim yoxdur. İşimlə eşq yaşayıram".

*Qeyd edək ki, Gözdə və Emre hazırda "Yalı çapkını" serialında rol alırlar.*



# 5 vacib şərt

Evliliyinizin uzun ömürlü olmasını istəyirsinizsə, bunlara əməl edin!

**Mütəxəssislər uzunömürlü evliliyin formulunu tapmağa çalışır. Bu məsələdə fərqli mütəxəssislər fərqli fikirlər söyləyir, müxtəlif vasitələr, şərtlər irəli sürürlər.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, psixoloqlar evliliyin uzun ömürlü olması üçün 5 vacib şərti təqdim edib. Birincisi, həyat yoldaşına qarşı anlayışlı olmaqdır. Həyat yoldaşınızla daim ünsiyyətdə, qarşılıqlı iltifat halındasınızsa, həyat yoldaşı kimi bir-birinizi bəyəndiyinizi hiss etdirirsinizsə, qarşılıqlı tərifllər, cəsarətverici sözlər deyir, müsbət mesajlar göndərirsinizsə, bu, evliliyinizi daha da möhkəmləndirəcək və siz evlilikdən bezənlərdən deyil, özünü xoşbəxt hiss edənlərdən olacaqsınız. İkincisi, həyat yoldaşı ilə birlikdə mümkün qədər çox vaxt keçirmək, uzun-uzadı söhbət etmək evliliyinizin yolunda getdiyinə işarədir. Üçüncüsü, ailə daxilində bir-birinizə yardım etməyə səy göstərin, ev işlərinin məsuliyyətini aranızda paylaşın, bu da evliliyin möhkəmlənməsinə xidmət edəcək şərtdir. Dördüncüsü, evli olanların bir-biri ilə fiziki təmasıdır. Bu, çox önəmlidir. Əl-ələ tutmaq, həyat yoldaşının qoluna, alnına və ya yanağına toxunmaq, kiçik öpüşlər evliliyi canlı və nəşəli edir. Beşincisi, ailə həyatını yeknəsəklikdən xilas etməkdir. Bunun üçün zaman-zaman həyat yoldaşınıza sürprizlər edin. Həm də onun gözləmədiyi anda. Xüsusi əhəmiyyət daşıyan, əlamətdar günləri, tarixləri də unutmaq qətiyyən olmaz. Belə günləri birgə qeyd etmək ailəni - evliliyi möhkəmləndirir.

**Məlahət**







## Həyat yoldaşına xəyanət

Arnold Şvarsneger sirrini paylaşıb

**Hollivud "ulduz"u Arnold Şvarsneger həyat yoldaşına xəyanət etməsinin sirrini paylaşıb. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, məşhur aktyorun həyatından bəhs edən sənədli filmin çəkilişləri başa çatmaq üzrədir. Film yaxın zamanda ekrana çıxacaq.**

Verilən məlumata görə, "ulduz" aktyor sənədli filmdə ailə həyatından, hətta həyat yoldaşına xəyanətindən də danışıb. Həyat yoldaşı Mariya Şriver barədə danışan aktyor onu necə aldatdığını da gizlətməyib. 75 yaşlı aktyor deyib ki, 1996-cı ildə evlərində xidmətçi olaraq çalışan Mildred Baenayla münasibətdə olduğunu etiraf edib. 1997-ci ildə aktyorun oğlu Cozef dünyaya gəlib. Aktyor həqiqəti yalnız 2011-ci ildə həyat yoldaşına açıqlayıb və Cozefin öz övladı olduğunu deyib: "Sanki ürəyim dayanacaqdı. Sonra ona həqiqəti söylədim. Bəli, Mariya, Cozef mənim oğlumdur", dedim. Aktyor Cozefin öz övladı olmasına əvvəlcə inanmayıb, lakin "o böyüdükcə mənim oğlum olduğuna inandım", - deyib. Aktyor həyat yoldaşına xəyanət etdiyinə görə üzgün olduğunu da etiraf edib: "Etdiyim xəta səbəbindən ailəmə çox acılar yaşatdım. Hər kəs acı çəkdi. Mariya, övladlarım, Cozef, onun anası - hər kəs. Həyatımın sonunadək bu üzüntü mənimlə qalacaq. Çox peşmanam". Xidmətçi qadınla münasibətləri ortaya çıxdıqdan sonra qadın mənzili tərk edib. Arnold və Mariya isə boşanma qərarı alıblar və 2021-ci ildə rəsmi qaydada boşanıblar. Onlar 1986-cı ildə ailə qurmuşdular və bu evlilik 25 il davam etmişdi. Cütlüyün 4 övladı var.

**Məlahət**

## Münasibətləri 1 ay çəkdi

**Müğənni Teylor Svift "The 1975" qrupunun solisti Metyu Helidən ayrılıb.**




Axşam.az xəbər verir ki, buna səbəb ikilinin gərgin iş qrafiki, eləcə də xasiyyətlərindəki uyğunsuzluq olduğu bildirilib. Teylor və Metyu sonuncu dəfə müğənninin mayın 25-də verdiyi konsertdə birlikdə görüntülənib.

Qeyd edək ki, Teylor bundan əvvəl 6 il aktyor Co Elvinlə sevgili olub. İfaçı Metyu ilə 1 ay əvvəl eşq yaşamışdı.

## 10 min ton qum istifadə edildi

Heyranedici əsərlər ortaya çıxdı








**Antalyada 18-ci dəfə təşkil edilən Beynəlxalq Antalya Qum Heykəl Festivalı 'Kosmos macərası' mövzusu ilə qapılarını ziyarətçilərin üzünə açıb.**

Bakupost.az xəbər verir ki, fantastik festivalda 10 min ton qumdan istifadə edilərək yaradılmış əsərlər nümayiş etdirilir.

Həmin əsərlərin 10 fərqli ölkədən 25 heykəltaraş və 15 texniki qrup tərəfindən hazırlandığını bildirilib.

İyunun 1-də başlayan festivalda ötən illərdəkilərlə birgə 150-dən çox əsər sərgilənir.

Həmçinin, indiyədək kosmosa göndərilən ilk raketlərin miniatürləri də hazırlanıb.

## Çox yemək ziyandır

Ancaq dondurmanın orqanizmə xeyri də var



**Dondurma yağlı, kalorili qidadır. Adi bir 100 qr- lıq plombirin kalorisi 230 - dur. Əgər digər əlavələr olunubsa, 300 kaloriyə kimi yüksəlir. Eləcə də 15 - 20 qr yağ var ki, onlar qanda "pis" xolestrinin yaranmasına səbəb olur.**

"Medicina" xəbər verir ki, əgər dondurmanı tez - tez , böyük miqdarda yeyirsinizsə, bu zaman osteoporoz, piylənmə, 2-ci tip diabet və ürək-damar xəstəlikləri riski artır.

Bəs dondurmanın orqanizmə nə xeyri var?

*Bunlar əsasən 3 faydadır:*

**1.**Dondurmanın tərkibində həyatı vacib vitamin və minerallar var; kalium, maqnezium, fosfor, dəmir, natrium, sink, mis, manqan, selenium, A, B1, B2, B6 vitaminləri. Bundan əlavə, dondurma porsiyasında enerji vərən bir protein var.

**2**. Dondurmada çoxlu kalsium var ki, bu da uşaqlar və yeniyetmələr üçün südə bərabərdir.

**3**. Nəhayət və ən əsası dondurma bizi az da olsa xoşbəxt edir. Birincisi, karbohidratlar əhval-ruhiyyəni yaxşılaşdıran serotoninin istehsalına kömək edir. İkincisi, sevdiyiniz deserti yeməyin özü əhvalınızı qaldırır.